5 iyul 2024 №50 (2115)
www.medeniyyet.az
# MƏDƏNİYYƏT
Azərbaycan Respublikası Mədəniyyət Nazirliyinin nəşri
Qəzet 1991-ci ilin yanvarından çıxır

## "Humanitar əməkdaşlıq fəaliyyətimizin əsasını təşkil edir"

İyulun 3-də Astanada Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Rusiya Federasiyasının Prezidenti Vladimir Putin ilə görüşü olub.

Görüşdə çıxış edən Rusiya Prezidenti bildirib ki, qarşılıqlı fəaliyyətimizin miqyası böyükdür, hətta hər ay görüşsək, danışmaq üçün mövzularımız var: "Əsas məsələ – məhz qarşılıqlı iqtisadi-ticari fəaliyyət üzrə əlaqələrimiz müsbət istiqamətdə inkişaf edir. Tendensiya yaxşıdır, məncə, ilin birinci yarısında artıq 13 faizlik artım var".

Prezident Vladimir Putin daha sonra deyib: "İnfrastruktur sahəsindəki planlarımızı qeyd etmək istərdim və təbii ki, burada indi birinci yerdə məlum Şimal-Cənub magistralıdır. Digər istiqamətlərdə, o cümlədən enerji və sənaye sahələrində əməkdaşlıq imkanları var. Sizinlə 2022-ci ildə imzaladığımız müqavilə əsasında fəaliyyət göstəririk. Bu bütün sahələrdə əlaqələrin inkişafı üçün yaxşı zəmindir.

Mən humanitar sahəni də qeyd edəcəyəm. Azərbaycanda Rusiya Mədəniyyəti Günləri yenicə başa çatıb. Mən Sizin rus dilinin dəstəklənməsinə şəxsi xüsusi diqqətinizi həmişə qeyd edirəm. Azərbaycanda rus dilində 300-dən çox məktəb fəaliyyət göstərir, gənclərə və uşaqlara rus dili öyrədilir. Bu, gələcəkdə də əlaqələrimizin qorunub saxlanılması və inkişafı üçün yaxşı zəmin və perspektivlər yaradır".

davamı səh. 2-də

## Üç qardaş – regional tərəfdaşlığın üfüqləri genişdir

### Azərbaycan, Türkiyə və Pakistan tarixi köklər və qardaşlıq münasibətləri ilə bir-birinə bağlıdır

İyulun 3-də Astanada Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev, Türkiyə Respublikasının Prezidenti Rəcəb Tayyib Ərdoğan və Pakistan İslam Respublikasının Baş naziri Məhəmməd Şahbaz Şərif arasında üçtərəfli görüş olub.



Söhbət zamanı Azərbaycan Prezidentinin, Türkiyə Prezidentinin və Pakistanın Baş nazirinin üçtərəfli formatda Zirvə görüşünün ilk dəfə keçirildiyi vurğulanaraq, onun tarixi əhəmiyyəti qeyd olunub və bu görüşlərin bundan sonra mütəmadi xarakter daşıyacağına əminlik ifadə edilib.

Azərbaycan, Türkiyə və Pakistanın tarixi-dini köklər və qardaşlıq münasibətləri ilə bir-birinə bağlı olduğu xüsusi qeyd edilib. Ölkələrimizin beynəlxalq təşkilatlar çərçivəsində daim bir-birini dəstəklədiyi və bunun gələcəkdə də davam etdirilməsinin vacibliyi bildirilib.

Azərbaycan, Pakistan və Türkiyə arasında parlamentlərin sədrləri, xarici işlər nazirləri səviyyəsində üçtərəfli formatların artıq mövcud olduğu və bu əsnada əvvəllər bir sıra görüşlərin keçirildiyi diqqətə çatdırılıb.

Azərbaycanın ərazi bütövlüyünü və suverenliyini tam şəkildə təmin etməsi bir daha vurğulanıb. Regiondan kənar ölkələrin Cənubi Qafqazda militarizasiya siyasəti apar masından narahatlıq ifadə edilib.

44 günlük Vətən müharibəsində qardaş Türkiyə və Pakistanın Azərbaycana göstərdiyi siyasi və mənəvi dəstək xüsusi vurğulanıb. Bunun Azərbaycan xalqı və dövləti tərəfindən yüksək qiymətləndirildiyi qeyd olunub.

Ölkələrimiz arasındakı siyasi əlaqələrin ruhuna uyğun olaraq üçtərəfli formatda iqtisadi-ticari əlaqələrin, innovasiyalar, energetika, kənd təsərrüfatı, təhsil, humanitar və digər sahələrdə əməkdaşlığın inkişafı ilə bağlı fikir mübadiləsi aparılıb. Bildirilib ki, iqtisadi-ticari əlaqələrin hazırda artan dinamikasının ölkələrimizin potensialına tam şəkildə uyğunlaşdırılması vacibdir.

Orta Dəhlizdə Pakistanın da iştirakı qeyd edilib və bunun ölkələrimiz arasında iqtisadi-ticari əlaqələrin təşviqinə töhfə verəcəyi bildirilib.

Görüşdə müdafiə və müdafiə sənayesi sahələrində əməkdaşlıq məsələlərinə toxunulub, 2021-ci ildə üç ölkənin xüsusi təyinatlılarının iştirakı ilə "Üç qardaş" şüarı altında keçirilən təlimlərin əhəmiyyəti qeyd olunub və üç ölkənin Silahlı Qüvvələri tərəfindən birgə təlimlərin bundan sonra da mütəmadi qaydada keçirilməsi təklif edilib. Təklif məmnunluqla qəbul olunub. Müdafiə sənayesi sahəsində də üç ölkənin birgə istehsalının təşkil edilməsi məsələsi vurğulanıb.

Dövlətimizin başçısı Türkiyə Prezidentini və Pakistanın Baş nazirini COP29-da iştiraka bir daha dəvət edib. Rəcəb Tayyib Ərdoğan və Məhəmməd Şahbaz Şərif dəvəti məmnunluqla qəbul ediblər.

## Azərbaycan Prezidenti: COP29-a hazırlıq istiqamətində ŞƏT ilə işi davam etdirəcəyik



Biz Bakıda keçiriləcək COP29 çərçivəsində inkişaf etmiş və inkişaf etməkdə olan ölkələr arasında körpü yaratmaq üçün səylərimizi əsirgəməyəcəyik və inkişaf etməkdə olan ölkələrin legitim maraqlarının nəzərə alınacaq razılaşmanın əldə edilməsinə çalışacağıq.

Azərbaycan Prezidenti İlham Əliyev bu fikri iyulun 4-də Qazaxıstanın paytaxtı Astanada keçirilən Şanxay Əməkdaşlıq Təşkilatının (ŞƏT) sammiti çərçivəsində "ŞƏT plyus" formatında görüşdə çıxışı zamanı deyib.

Dövlətimizin başçısı bildirib ki, Azərbaycanın prioritetləri sırasında həm də iqlim dəyişikliyinin mənfi təsiri səbəbindən ekzistensial təhlükə ilə üzləşən inkişaf etməkdə olan kiçik ada dövlətlərinə dəstək yer alır.

"Biz dünyada ən böyük beynəlxalq tədbir olan COP29-un keçirilməsinə hazırlıq istiqamətində ŞƏT ilə işi davam etdirəcəyik", – deyə Prezident İlham Əliyev vurğulayıb.

## Şəki "İpək Yolu" festivalına hazırdır

Xəbər verdiyimiz kimi, Azərbaycanın qədim sənət və mədəniyyət mərkəzlərindən olan Şəkidə iyulun 5-dən 7-dək növbəti musiqi bayramı – Şəki "İpək Yolu" XIII Beynəlxalq Musiqi Festivalı keçiriləcək.




Mədəniyyət Nazirliyi, Azərbaycan Bəstəkarlar İttifaqı və Şəki Şəhər İcra Hakimiyyətinin birgə təşkilatçılığı ilə reallaşacaq musiqi festivalında bir sıra ölkələrin, eləcə də Azərbaycanın musiqi kollektivləri iştirak edəcəklər.

İcra Hakimiyyətindən verilən məlumata görə, Şəki festivala hazırdır.

Festival iyulun 5-də Rusiya Federasiyası Tatarıstan Respublikasının paytaxtı Kazan şəhərindən gələn bayan ifaçılarının çıxışı ilə başlayacaq. Həmin gün axşam "Marxal" kompleksinin Yay teatrında Şəki "İpək Yolu" XIII Beynəlxalq Musiqi Festivalının təntənəli açılış mərasimi keçiriləcək. İndoneziyanın "Mila Art" rəqs və "Hamdani" musiqi qruplarının konserti təqdim ediləcək.

İyulun 6-da günün birinci yarısında "Yuxarı Karvansaray" mehmanxana kompleksində "Şəhər Günü" bayram tədbiri keçiriləcək. Axşam festival iştirakçıları "Az Abrau Muzeyi" ilə tanış olacaq, şərab zavodunun həyətində qurulmuş səhnədə Hindistandan gələn rəqs qrupunun və yerli musiqiçilərin çıxışına tamaşa edəcəklər. Burada Hindistan və yerli mətbəxin nümunələri də təqdim ediləcək, həmçinin şəbəkə sənəti üzrə ustad dərsi keçiriləcək.

İyulun 7-də Şəki Heydər Əliyev Mərkəzində TÜRKSOY-un təşkilatçılığı ilə Türkiyə və Qazaxıstandan gələn kollektivlərin çıxışları olacaq.

Həmin gün axşam "Marxal" kompleksinin Yay teatrında festivalın bağlanış mərasimi keçiriləcək. Mərasimdə Fikrət Əmirov adına Əməkdar kollektiv Dövlət Mahnı və Rəqs Ansamblı və Azərbaycan Dövlət Xalq Çalğı Alətləri Orkestri konsert proqramı ilə çıxış edəcək.

## Qazaxıstanda Azərbaycan Mədəniyyəti Günləri keçiriləcək

İyulun 3-də Astanada Prezident İlham Əliyevin Qazaxıstan Prezidenti Kasım-Jomart Tokayev ilə görüşü olub.

Görüşdə humanitar sahədə əməkdaşlığa da toxunulub, Qazaxıstan Mədəniyyəti Günlərinin Azərbaycanda uğurla təşkil olunduğu, Azərbaycan Mədəniyyəti Günlərinin isə bu ilin sentyabrında Qazaxıstanda keçiriləcəyi vurğulanıb.

səh. 2

## Ölkəmiz Rusiyada milli teatrlar konqresi və yay festivalında təmsil olunub

Rusiyanın Suzdal şəhərində (Vladimir vilayəti) 28–30 iyun tarixlərində keçirilən II Rusiya Milli Teatrları Konqresində və Rusiya Milli Teatrlarının Birinci Yay Festivalında ölkəmiz fəxri qonaq qismində təmsil olunub.

Tədbirlərdə mədəniyyət nazirinin müşaviri Əməkdar artist Oleq Əmirbəyov, Akademik Milli Dram Teatrının direktoru Əməkdar mədəniyyət işçisi İlham Əsgərov və teatrın ədəbi hissə müdiri Cavid Zeynallı iştirak ediblər.

Konqres və festival Suzdal şəhərinin 1000 illik yubiley tədbirləri çərçivəsində Rusiya Milli Dram Teatrının (Aleksandrinski Teatrı) təşkilatçılığı, RF Mədəniyyət Nazirliyi, Mədəniyyət Təşəbbüsləri Prezident Fondu, Vladimir Vilayəti Hökuməti və Suzdal Muzey-Qoruğunun dəstəyi ilə reallaşıb.

davamı səh. 3-də




## BMT-nin Cenevrə Ofisinin rəhbəri Heydər Əliyev Mərkəzindəki sərgilərə baxıb



BMT-nin Cenevrədəki Ofisinin baş direktoru Tatyana Valovaya ölkəmizə səfəri çərçivəsində Azərbaycan Respublikası Prezidentinin köməkçisi, Heydər Əliyev Fondunun icraçı direktoru Anar Ələkbərov ilə görüşüb.

Görüşdə Heydər Əliyev Fondu ilə BMT arasında gələcək əməkdaşlığa dair fikir mübadiləsi aparılıb, COP29 çərçivəsində iki qurumun birgə fəaliyyətinə dair layihələr müzakirə edilib.

Azərbaycanın bu il ev sahibliyi edəcəyi BMT-nin İqlim Dəyişmələri üzrə Çərçivə Konvensiyası Tərəflər Konfransının 29-cu sessiyası – COP29-un dünyada ekoloji problemlərin həlli baxımından uğurlu nəticələr verəcəyinə, bu tədbirin başəriyyət üçün yaşıl, ədalətli, inklüziv və dayanıqlı dünya naminə həmrəyliyi gücləndirmək, planetimizin gələcəyi üçün müsbət nəticələr əldə etmək istiqamətində növbəti addım olacağına əminlik ifadə olunub.

Qonaq daha sonra Heydər Əliyev Mərkəzində nümayiş etdirilən sərgilərlə tanış olub.

## Mədəni və yaradıcı sənayelərin təşviqi üzrə müsabiqə

Mədəniyyət Nazirliyi qeyri-hökumət təşkilatları üçün mədəni və yaradıcı sənayelərin təşviqi üzrə qrant müsabiqəsi elan edir.

Müsabiqənin əsas məqsədi "Azərbaycan Respublikasının 2022–2026-cı illərdə sosial-iqtisadi inkişaf Strategiyası"nın Tədbirlər planının icrası istiqamətində mədəni və yaradıcı sənayelərin, həmçinin mədəniyyət və innovativ cəmiyyəti inkişafı üçün müasir, dayanıqlı və çoxtərəfli əməkdaşlıqları özündə ehtiva edən, müasir dövrün çağırışlarına cavab verən layihələrin həyata keçirilməsi və bu prosesdə vətəndaş cəmiyyəti təşkilatlarının rolunun artırılmasıdır.

Qrant müsabiqəsi mədəniyyət və yaradıcı sənayelərin inkişafı, mədəniyyət sahəsində rəqəmsal həllər, yerli animasiyanın dəstəklənməsi və kino sənayesində institusional islahatlar kimi prioritet istiqamətləri əhatə edir.

Dövlət qeydiyyatına alınmış və mədəniyyət sahəsində layihələrin icrası və tədbirlərin təşkili ilə bağlı müvafiq təcrübəsi olan qeyri-hökumət təşkilatları müsabiqədə iştirak edə bilərlər.

Müraciət üçün son tarix: 1 avqust 2024-cü il.

Sənədlərin qəbulu grants.culture.az resursu üzərindən həyata keçirilir.

## Əlisəttarın sirli-sehrli dünyası



Milli kinematoqrafiyamızda onun ayrıca yeri var. Fərqli üslubu, dövrünü qabaqlayan yenilikçi düşüncələri ilə seçilən və düşündüyünün vizual həllini ustalıqla verən rejissor idi...

səh. 7



Kamera musiqisi axşamı

səh. 3



Fiqaro niyə səhnəyə qayıdıb?

səh. 5

## “Humanitar əməkdaşlıq fəaliyyətimizin əsasını təşkil edir”

*əvvəli səh. 1-də*




Azərbaycan Prezidenti qeyd edib ki, iki ölkə arasında məsələlər çoxdur və onları müzakirə etmək üçün biz mütəmadi görüşürük: “Sonuncu dəfə aprelin ikinci yarısında Moskvaya səfər etdim. Ondan bir aydan bir qədər sonra yenidən görüşürük. Siz də qeyd etdiyiniz kimi, bu onu göstərir ki, böyük uğurla həll edilən çoxlu məsələlər var. Əlbəttə, həm keçən il, həm də bu il əmtəə dövriyyəsinin artması ölkələrimizin iqtisadiyyatlarının fəal qarşılıqlı fəaliyyət göstərdiyini nümayiş etdirir. Sevindirici haldır ki, həmçinin milli valyutalarda qarşılıqlı hesablaşmalar artır. Bu, Azərbaycanın Rusiyaya ixracında artıq 70 faizdən çoxdur, Rusiyanın Azərbaycana ixracında isə 50 faizə yaxındır”.

İlham Əliyev vurğulayıb ki, humanitar əməkdaşlıq həmişə iki ölkə arasında qarşılıqlı fəaliyyətin, demək olar ki, əsasını təşkil edib: “Azərbaycanda böyük uğurla keçirilən Rusiya Mədəniyyəti Günləri də bunu bir daha təsdiqləyir. Bizdə bir milyona yaxın şagird rus dilində təhsil alır, 150 min nəfər rus məktəblərində oxuyur, 800 min nəfər isə rus dilini ikinci dil kimi öyrənir. Yəni, bu, onu deməyə əsas verir ki, vətəndaşlarımızın gələcək nəsilləri də aktiv qarşılıqlı fəaliyyətdə olacaqlar və rus dilində Sizinlə mənim danışdığımız kimi danışacaqlar”.

Söhbət zamanı Rusiyadan Azərbaycana gələn turistlərin sayında artımın olduğu, Azərbaycanda Rus Dram Teatrının fəaliyyət göstərdiyi də qeyd edilib.

Nəqliyyat, gəmiqayırma, əczaçılıq, avtomobil sənayesi sahələrində əməkdaşlıq, Rusiyanın avtomobil istehsal edən müxtəlif şirkətləri tərəfindən Azərbaycanda istehsalın təşkili məsələləri ilə bağlı fikir mübadiləsi aparılıb.

Dövlətimizin başçısı aprel ayında Moskvada “Şimal-Cənub” layihəsi ilə bağlı aparılan müzakirədən sonra müsbət irəliləyişlərin baş verdiyini diqqətə çatdırıb: “Biz Azərbaycan ərazisində dəhlizin infrastrukturunu genişləndirmək əzmindəyik, fiziki cəhətdən mövcud olsa da, o, tərəfdaşlarımızın və qonşularımızın bu layihədən maksimum istifadə ilə bağlı niyyətlərinə uyğun gəlmir. Həmçinin Siz qeyd etdiyiniz kimi, energetika sahəsində yeni ideyalar var, bizim müvafiq strukturlarımız daimi təmasdadır. Həmçinin başqa istiqamətlər üzrə də...

2022-ci ildə biz uğurla həyata keçirilən Müttəfiqlik Bəyannaməsini imzaladıq və Bəyannamənin bütün bəndləri real həyatda öz əksini tapır. Artıq iki ildən artıqdır ki, müttəfiqlər kimi birgə işləyirik və yaxşı nəticələrə nail oluruq...”.

***

Görüşdə Rusiya Prezidenti Vladimir Putin Ermənistanla Azərbaycan arasında münasibətlərin normallaşdırılmasına və sülh gündəliyinin irəli aparılmasına daim dəstək verməyə hazır olduğunu deyib. Bu əsnada müzakirələr aparılıb. Dövlətimizin başçısı Ermənistanla Azərbaycan arasında münasibətlərin normallaşması prosesi haqqında məlumat verib.

## Vatikan Heydər Əliyev Fondu ilə əməkdaşlıqdan məmnundur

Azərbaycana səfəri çərçivəsində Vatikan Dövlətinin Müqəddəs Arxeologiya üzrə Pontifik Komissiyasının prezidenti Monsenyor Paskal Yakabonenin başçılıq etdiyi arxeoloq və ekspertlərdən ibarət nümayəndə heyətinin Azərbaycan Respublikası Prezidentinin köməkçisi, Heydər Əliyev Fondunun icraçı direktoru Anar Ələkbərovla görüşü olub.



Görüşdə Azərbaycanla Vatikan arasında əlaqələrin inkişafından məmnunluq ifadə edilib, müxtəlif səviyyələrdə reallaşan qarşılıqlı səfərlərin, o cümlədən 2002-ci ildə Papa II İohann Pavelin, 2016-cı ildə Papa Fransiskin ölkəmizə, Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin, birinci xanım, Heydər Əliyev Fondunun prezidenti Mehriban Əliyevanın isə Vatikana səfərlərinin həm ikitərəfli əlaqələr, həm də sivilizasiyalararası dialoq baxımından mühüm əhəmiyyət kəsb etdiyi vurğulanıb, imzalanan sənədlərin münasibətlərimizin genişlənməsinə töhfə verdiyi qeyd edilib.

Ölkəmizin Vatikanda səfirliyinin fəaliyyətindən, birgə layihələrdən bəhs olunub, müştərək layihələr üzərində işlərin uğurla davam etdiyi bildirilib. Fond tərəfindən Vatikanda bir sıra tarixi abidələrin bərpasının həyata keçirilməsi, mədəni irsin qorunması sahəsində işlərin görülməsi ikitərəfli münasibətlərə töhfə kimi vurğulanıb.

Paskal Yakabone görülən bütün işlərə görə Azərbaycanın Birinci vitse-prezidenti Mehriban Əliyevaya minnətdarlığını ifadə edib.

Dini etiqad və vicdan azadlığının tam təmin olunduğu, çoxlu sayda dini icmanın fəaliyyət göstərdiyi Azərbaycanda kilsə və məbədlərin, o cümlədən katolik kilsələrin bərpası istiqamətində görülən işlər yüksək dəyərləndirilib.

Anar Ələkbərov Heydər Əliyev Fondunun gələcəkdə də Vatikanla əməkdaşlıq çərçivəsində yeni layihələrə açıq olduğunu diqqətə çatdırıb.

Görüşdə tarixi və mədəni əhəmiyyət daşıyan abidələrin bərpası istiqamətində təcrübə mübadiləsinin əhəmiyyətinə də nəzər salınıb.

Monsenyor Paskal Yakabone hər 25 ildən bir Vatikanda keçirilən və növbəti mərasimin 2025-ci ilə təsadüf etdiyi Müqəddəs Yubiley İli ilə bağlı tədbirə Heydər Əliyev Fondunun da dəvətli olduğunu diqqətə çatdırıb.

# Qazaxıstanda Azərbaycan Mədəniyyəti Günləri keçiriləcək

### Münasibətlərin bütün istiqamətləri üzrə müsbət dinamika var

Xəbər verildiyi kimi, 3–4 iyul tarixlərində Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Şanxay Əməkdaşlıq Təşkilatının (ŞƏT) sədri statusunda Qazaxıstan Respublikasının Prezidenti Kasım-Jomart Tokayevin dəvəti ilə təşkilatın zirvə toplantısında iştirak etmək üçün Astana şəhərinə səfər edib.

Qeyd edək ki, bu, Prezident İlham Əliyevin ŞƏT sammitində ikinci iştirakıdır. 2022-ci ilin sentyabrında təşkilatın sədri statusunda Özbəkistan Prezidenti Şavkat Mirziyoyevin dəvəti ilə dövlətimizin başçısı ŞƏT-in Səmərqənd şəhərində keçirilmiş Zirvə toplantısında iştirak edib.

***

Astanaya səfər zamanı dövlətimizin başçısı bir sıra görüşlər keçirib.

İyulun 3-də Astanada Prezident İlham Əliyevin Qazaxıstan Prezidenti Kasım-Jomart Tokayev ilə geniş tərkibdə görüşü olub.

Prezident İlham Əliyevi salamlayan Qazaxıstan rəhbəri bu ilin martında ölkəmizə – Bakıya və Şuşaya səfərini xatırlayıb. Bildirib ki, bu öz əhəmiyyətinə görə tarixi səfər idi. Hazırda biz əldə olunmuş razılaşmaların həyata keçirilməsi üzərində işləyirik: “Danışıqlar əsnasında qarşılıqlı fəaliyyətimizin, hətta deyərdim ki, bir sıra strateji sahələrdə əməkdaşlığın və qarşılıqlı fəaliyyətin gələcək inkişafına böyük impuls verdik. Mübaliğəsiz deyə bilərik ki, əməkdaşlığımız, qarşılıqlı fəaliyyətimiz strateji əhəmiyyət daşıyır”.

Azərbaycan liderini Şanxay Əməkdaşlıq Təşkilatının Zirvə toplantısında görməkdən məmnunluğunu bildirən Tokayev daha sonra deyib: “Bəlkə də bir müddət sonra Azərbaycan ŞƏT-in tamhüquqlu üzvü olacaq. Hər halda, Qazaxıstan buna etiraz etmir, əksinə, Sizin tərəfinizdən müvafiq istək varsa, onu dəstəkləyir”.

Kasım-Jomart Tokayev Qazaxıstanın Azərbaycan və Ermənistan XİN başçılarının danışıqları üçün platforma təqdim etmək təklifinə dərhal razılıq verdiyinə görə Prezident İlham Əliyevə minnətdarlığını bildirib: “İlk danışıqlar Almatıda baş tutdu. Onlar kifayət qədər uğurlu, hər halda, faydalı oldu”.

***



Prezident İlham Əliyev ŞƏT-in Zirvə toplantısında iştirak etmək üçün dəvətə görə minnətdarlığını bildirərək deyib ki, biz bunu Qazaxıstanın Azərbaycana qardaşlıq münasibətinin növbəti göstəricisi kimi qiymətləndiririk və bu tədbirdə iştirak etməkdən şərəf duyuruq.

Dövlətimizin başçısı Qazaxıstan rəhbərinin Azərbaycana dövlət səfərinin əhəmiyyətini vurğulayıb, həmçinin işğaldan azad edilmiş ərazilərin bərpasına kömək göstərilməsi təşəbbüsünə görə Kasım-Jomart Tokayevə bir daha Azərbaycan xalqı adından minnətdarlığını ifadə edib. Prezident qeyd edib ki, Qazaxıstan tərəfindən Füzuli şəhərində yaradılan Kurmanqazı adına Uşaq Yaradıcılıq Mərkəzi Qazaxıstan-Azərbaycan dostluğunun və qardaşlığının mərkəzidir: “Bu, şəxsən Sizin və qardaş Qazaxıstan xalqının Azərbaycana münasibətinin bariz təzahürüdür”.

İki ölkə arasında münasibətlərdən bəhs edən Azərbaycan Prezidenti vurğulayıb ki, razılaşdırdığımız bütün istiqamətlər üzrə müsbət dinamika əldə olunur: “Nəqliyyat infrastrukturu ilə bağlı məsələlər fəal şəkildə həyata keçirilir. Biz mahiyyət etibarilə Trans-Xəzər nəqliyyat marşrutu üzrə vahid komanda şəklində fəaliyyət göstəririk. Əlbəttə, bugünkü və sabahkı tədbirlər çərçivəsində bu mövzu daha geniş müzakirə ediləcək. Həmçinin bu, bir neçə gün sonra keçiriləcək və Sizi yenidən Qarabağda görməyimizə şad olacağımız Türk Dövlətləri Təşkilatının qeyri-rəsmi Zirvə görüşündə əsas mövzu olacaq”.

Prezident İlham Əliyev Azərbaycan ilə Ermənistan arasında prosesə verdiyi dəstəyə görə Qazaxıstan liderinə bir daha təşəkkür edib.

Öz növbəsində Kasım-Jomart Tokayev COP29-un ölkəmizdə keçirilməsi münasibətilə təbriklərini çatdırıb. COP29-un dünya səviyyəsində ən mötəbər tədbirlərdən biri olduğunu deyən Qazaxıstan Prezidenti Azərbaycanın bu tədbiri uğurla təşkil edəcəyinə əminliyini bildirib.

Söhbət zamanı Orta Dəhlizin inkişafı istiqamətində nailiyyətlər qeyd olunub, Birgə İnvestisiya Fondu ilə əlaqədar anlaşma memorandumunun (iyulun 3-də Astanada imzalanıb – red.) əhəmiyyəti qeyd edilib, bu xüsusda artıq konkret layihələrin icrasına dair aidiyyəti qurumlara tapşırıqlar verildiyi diqqətə çatdırılıb.

Görüşdə humanitar sahədə əməkdaşlığa da toxunulub, Qazaxıstan Mədəniyyəti Günlərinin Azərbaycanda uğurla keçirildiyi (dekabr 2023-cü il – red.), Azərbaycan Mədəniyyəti Günlərinin isə bu ilin sentyabrında Qazaxıstanda keçiriləcəyi vurğulanıb.

# Azərbaycan və Çin arasında strateji tərəfdaşlıq

### Birgə Bəyannamə qəbul olunub

Şanxay Əməkdaşlıq Təşkilatının Astanada keçirilən Zirvə toplantısı çərçivəsində iyulun 3-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Çin Xalq Respublikasının Sədri Si Cinpin ilə görüşü keçirilib.

Görüşdə “Azərbaycan Respublikası ilə Çin Xalq Respublikası arasında strateji tərəfdaşlığın qurulması haqqında Birgə Bəyannamə” qəbul olunub.

Bəyannamədə iki ölkə münasibətlərinin geniş spektri əhatə olunub.

Qeyd olunur ki, tərəflər beynəlxalq və regional vəziyyətin tektonik və mürəkkəb inkişafı fonunda siyasi, iqtisadi və mədəni sahələrdə əməkdaşlığı genişləndirməyə, beynəlxalq məsələlərdə qarşılıqlı fəaliyyəti gücləndirməyə, iki ölkənin ümumi maraqlarını birgə qorumağa, həmçinin regional və qlobal sülh, sabitlik və inkişaf fəaliyyətini birgə irəli aparmağa dair razılıq əldə ediblər.

Tərəflər strateji tərəfdaşlıq qurur, ikitərəfli münasibətlərin təməl prinsipləri olan qarşılıqlı hörmət, bərabərlik, etimad, qarşılıqlı dəstək, qarşılıqlı fayda və əməkdaşlıqdan çıxış edirlər. Tərəflər bir-birini prioritet və etibarlı tərəfdaş hesab edir və xarici amillərdən asılı olmayaraq, ikitərəfli münasibətlər üzrə siyasətlərini müstəqil şəkildə müəyyənləşdirirlər.

Bəyannamədə həmçinin qeyd olunur ki, tərəflər ərazi bütövlüyünə və suverenliyə qarşılıqlı hörmət, hücum etməmək, daxili işlərə qarışmamaq, bərabərlik, qarşılıqlı fayda və dinc birgəyaşayışa sadiqliyi təsdiqləyirlər. Azərbaycan tərəfi “Vahid Çin” prinsipini qətiyyətlə dəstəkləyir, dünyada yalnız bir Çinin mövcudluğunu, Çin Xalq Respublikası hökumətinin bütün Çini təmsil edən yeganə qanuni hökumət olduğunu, Tayvanın isə Çin ərazisinin ayrılmaz bir hissəsi olduğunu tanıyır, istənilən formada “Tayvanın müstəqilliyi”nə qarşı qətiyyətlə çıxış edir, Çin Hökumətinin Çinin birləşdirilməsi istiqamətində səylərini dəstəkləyir.

Çin tərəfi Azərbaycan tərəfinin təklif etdiyi sülh gündəliyini qətiyyətlə dəstəkləyir və konfrontasiyanın saxlanmasına yönəlmiş geosiyasi intriqaları qeyri-səmərəli hesab edir.

Tərəflər iki ölkənin inkişaf strategiyalarının birləşdirilməsini gücləndirməyə, “Bir kəmər, bir yol” çərçivəsində bütün sahələrdə praktiki əməkdaşlığı dərinləşdirməyə, Azərbaycan və Çin hökumətləri arasında beynəlxalq multimodal daşımaların inkişafına dair Sazişin imzalanması prosesini sürətləndirməyə hazır olduqlarını bildirirlər.

Bəyannamədə media və informasiya mübadiləsi sahəsində əməkdaşlığa dəstək də əksini tapıb. Bundan əlavə, tərəflər elm, texnologiya, təhsil sahəsində qarşılıqlı faydalı əməkdaşlığı fəal şəkildə təşviq etməyə hazır olduqlarını bildirirlər.

“Tərəflər mədəniyyət sahəsində əməkdaşlığın səviyyəsinin artırılması, qarşılıqlı əsasda Azərbaycan və Çinin mədəniyyət günlərinin keçirilməsi barədə razılığa gəlib və qarşılıqlı olaraq mədəniyyət mərkəzlərinin təsis edilməsi ilə bağlı məsləhətləşmələr aparmağa hazır olduqlarını bildirirlər”, – deyə sənəddə qeyd olunur.

Həmçinin tərəflər turizm üzrə əməkdaşlığı gücləndirməyə və turizmin ümumi inkişafına töhfə verməyə, eləcə də səhiyyə, idman və gənclər siyasəti sahələrində əməkdaşlığı dərinləşdirməyə, kino, media və beyin mərkəzləri sahələrində əməkdaşlığı gücləndirməyə hazır olduqlarını bildirirlər.

Çin Azərbaycanın illik Çin beynəlxalq turizm yarmarkasında və digər turizm sərgilərində iştirakını, habelə Azərbaycan tərəfinin turizmin inkişafı, eləcə də iqtisadi, humanitar və mədəni əlaqələrin daha da genişləndirilməsi məqsədilə Çin vətəndaşlarına birtərəfli qaydada bir il müddətinə vizasız rejimin tətbiq edilməsi barədə qərarını alqışlayır. Tərəflər bundan sonra da vətəndaşların qarşılıqlı səfərlərinin asanlaşdırılmasına töhfə verəcəklər.

# Turizm və hotelçilik sənayesi COP29-a hazırlaşır

### Hotelləri milli platformadan rezervasiya etmək olar

İyulun 3-də Dövlət Turizm Agentliyinin (DTA) təşkilatçılığı ilə Milli Ulduz Təsnifatından keçmiş hotellərə ulduz dərəcələrinin verilməsi və Milli Rezervasiya Platformasının təqdimatı tədbiri keçirilib.

Tədbirdə çıxış edən DTA-nın sədri Fuad Nağıyev Azərbaycanın müsbət turizm imicinin formalaşmasına hotellərdə olan infrastruktur, şərait, xidmət səviyyəsi və digər meyarların təsir etdiyini bildirib. Qeyd edib ki, bunların qiymətləndirilməsi hotellərin ulduz təsnifatından keçməsi və müvafiq ulduz dərəcələrini əldə etməsi mümkündür.

Milli Ulduz Təsnifatı əsasında 200-dən çox hotelə ulduz dərəcələrinin təyin edildiyini diqqətə çatdıran Fuad Nağıyev deyib ki, proses boyu çoxsaylı uyğunsuzluqlar səbəbilə təkrar auditə qalan və ya təsnifata yenidən müraciət etməli olan hotellər var.

Ümumilikdə 40-a yaxın hotelə uyğunsuzluqları aradan qaldırmaq üçün müəyyən vaxt verilib. Bu prosesdə Azərbaycan Turizm Bürosu və Azərbaycan Hotel Assosiasiyası tərəfindən hotellərə konsultativ dəstəyin göstərilməsi davam edir.

Agentlik sədri bildirib ki, hazırda qarşıda duran əsas hədəf COP29 kimi beynəlxalq tədbirin ən yüksək səviyyədə təşkilində hotelçilik sənayesinin rolunun gücləndirilməsidir.

İqtisadiyyat Nazirliyi yanında Antiinhisar və İstehlak Bazarına Nəzarət Dövlət Xidmətinin rəisi Məmməd Abbasbəyli turizm sahəsində resursların səmərəli




idarə olunması, iş proseslərinin optimallaşdırılması və xərclərin azaldılmasına töhfə verən yeni standartların qəbul edilməsinin vacibliyini vurğulayıb.

Tədbir zamanı Dünya Səyahət və Turizm Şurası tərəfindən təsis edilən və Azərbaycan Turizm Bürosunun rəsmi tərəfdaşı olduğu “Hotel Dayanıqlılıq Əsasları” təşəbbüsünə qoşulmaq barədə məlumat verilib. Bildirilib ki, bu proqram yerləşmə sənayesinin qlobal dayanıqlılıq meyarlarına uyğunlaşmasına dəstək olmaq üçün ilkin atıla biləcək addımları ehtiva edir.

Ölkəmizdə ilk Milli Rezervasiya Platforması təqdimatı zamanı qeyd olunub ki, platformadan istifadə edən hotellər, qonaq evləri, digər yerləşmə vasitələrinə imtiyaz və güzəştlər şamil ediləcək.

# Dilimizdən necə istifadə edirik və onu necə qoruyuruq?

## AMEA dəyirmi masa keçirib

İyulun 3-də Azərbaycan Milli Elmlər Akademiyasının (AMEA) Mərkəzi Elmi Kitabxanasında "Azərbaycan dilindən istifadə: uğurlar, problemlər, vəzifələr" mövzusunda dəyirmi masa keçirilib.

AMEA-nın prezidenti akademik İsa Həbibbəyli çıxışında Ulu öndər Heydər Əliyevin Azərbaycan dilinə, təhsilinə və elminə çox yüksək qiymət verdiyini vurğulayıb. Qeyd edib ki, Azərbaycan dili türk dilləri ailəsində özünəməxsus yeri, dərin kökləri, böyük ənənəsi olan çox zəngin dildir.

Ölkəmizdə həyata keçirilən dil siyasəti barədə danışan akademik diqqətə çatdırıb ki, Prezident AMEA-nın 70 illik yubileyində (2015) proqram xarakterli və dərin məzmunlu çıxışı zamanı Azərbaycan dili haqqında qiymətli fikirləri içərisində dilimizin saflığının qorunması ilə bağlı alimlərimiz, ziyalılarımız, ictimai xadimlərimiz qarşısında vəzifələr qoyub. Qarşımızda duran başlıca vəzifələr dilimizin daxili imkanlar hesabına zənginləşməsinə elmin dəstəyini vermək və yad sözlərin dilimizə necə gəldi daxil olmasının qarşısını almaq yollarını müəyyənləşdirməkdir.



AMEA prezidenti Azərbaycan dilinin tətbiqi, ədəbi dil normalarının qorunması, dilimizin saflığının təmin olunması və digər istiqamətlərdə Nəsimi adına Dilçilik İnstitutunda mühüm tədqiqatlar aparıldığını vurğulayıb. Həmçinin Azərbaycan Respublikasının Dövlət Dil Komissiyası yanında Monitorinq Mərkəzinin ana dilimizin saflığının qorunması istiqamətində müntəzəm tədbirlər keçirdiyini, mediada, habelə mahnıların sözlərində monitorinqlərin aparıldığını nəzərə çatdırıb.

Milli Məclisin VI çağırış deputatı Fazil Mustafa, mədəniyyət nazirinin müavini Səadət Yusifova, yazıçı-publisist Seyran Səxavət, Dövlət Dil Komissiyası yanında Monitorinq Mərkəzinin direktoru professor Sevinc Əliyeva, Xalq şairi Sabir Rüstəmxanlı, Azərbaycanda Atatürk Mərkəzinin direktoru akademik Nizami Cəfərov, Nizami Gəncəvi adına Milli Azərbaycan Ədəbiyyatı Muzeyinin direktoru akademik Rafael Hüseynov və digər çıxış edənlər mövzu ilə bağlı fikirlərini bölüşüblər.

# Diplom işi Gənc Tamaşaçılar Teatrının səhnəsində

İyulun 4-də Azərbaycan Dövlət Milli Gənc Tamaşaçılar Teatrında Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət Universitetinin (ADMİU) məzunu Müşfiq Elmanoğlunun rejissorluq üzrə diplom işi olan "Ana" tamaşası nümayiş olunub.



Teatrdan bildirilib ki, çex yazıçısı Karel Çapekin eyniadlı əsəri əsasında hazırlanan səhnə əsərinin quruluşçu rəssamı Şahin Hüseynli, musiqi tərtibatçısı Aygül Quliyevadır. Tamaşada aktyorlar Zülfiyyə Alhüseynova, Anar Seyfullayev, Anar Səfiyev, Araz Pirimov, İlhan Sadıqov, Mətləb Abuşov, Hüseyn Bayramov iştirak ediblər.

Diplom işinin rəhbəri Əməkdar incəsənət xadimi Bəhram Osmanovdur.

1938-ci ildə yazılmış əsərdə faşizmə qarşı mübarizə və müharibənin gətirdiyi mənəvi sarsıntılar, iztirablar təsvir olunur.

# Ustaddan teatr təlimi

Mədəniyyət Nazirliyinin Mədəniyyət üzrə Elmi-Metodiki və İxtisasartırma Mərkəzi (MEMİM) "Nəsildən-nəslə teatr" layihəsini təqdim edir.

Layihə çərçivəsində "Öz teatrını yarat" adlı ilk seminar iyulun 9-da Azərbaycan Dövlət Akademik Milli Dram Teatrının kiçik səhnəsində baş tutacaq.

Azərbaycan Dövlət Pantomima Teatrının bədii rəhbəri Xalq artisti Bəxtiyar Xanızadə gənclərlə teatr işinin təşkilində sosial-iqtisadi və bədii-konseptual aspektlər, ənənə, müasirlik, yeni yaradıcı tendensiyalar və s. mövzularda fikir mübadiləsi aparacaq.

Layihənin məqsədi nəsillər arasında fikir və təcrübə platforması yaratmaqla Azərbaycanda teatr prosesinin inkişafına töhfə vermək, teatra müasir beynəlxalq tendensiyaların tətbiqi, bu sahəyə marağın artırılması, gənclərin cəlb edilməsi və aktiv yaradıcı mühitin formalaşdırılmasıdır.

"Nəsildən-nəslə teatr" seminarları çərçivəsində teatr sənətçiləri ilə interaktiv görüşlərin davamlı təşkili nəzərdə tutulur.

# SABAH-ın məzun mərasimi




İyulun 4-də Heydər Əliyev Mərkəzində "SABAH-ın məzunu – 2024" mərasimi keçirilib.

Mərasimdə Prezident Administrasiyası Humanitar siyasət, diaspor, multikulturalizm və dini məsələlər şöbəsinin müdiri Fərah Əliyeva, elm və təhsil naziri Emin Əmrullayev, dövlət və özəl qurumların rəsmiləri, ali təhsil müəssisələrinin rektorları, müəllim və tələbələr iştirak ediblər.

Əvvəlcə SABAH məzunlarının nailiyyətlərini əks etdirən sərgi ilə tanışlıq olub.

Mərasimdə çıxış edən elm və təhsil naziri Emin Əmrullayev SABAH qruplarının nailiyyətlərindən söz açıb. Bildirib ki, SABAH-ın məqsədi rəqabət mühiti yaratmaqdır. İndiyədək SABAH-ın təşkil etdiyi startaplar 9 milyon manata yaxın xarici investisiyalar əldə edib.

Nazir 2024–2025-ci tədris ilindən etibarən Qarabağ Universitetində də SABAH qruplarının fəaliyyətə başlayacağını diqqətə çatdırıb.

Tədbirdə hər il təkrarlanan ənənə – rəmzi "SABAH açarı"nın hazırkı məzunlardan növbəti ilin məzunlarına ötürülməsi mərasimi də keçirilib.

Yüksək göstəriciləri ilə fərqlənən məzunlar təltif olunublar.

SABAH qrupları tələbələrinin ifasında musiqi nömrələri səsləndirilib.

Qeyd edək ki, 2023–2024-cü tədris ilində 10 ali təhsil müəssisəsi və 31 ixtisas üzrə 727 bakalavr, 8 ixtisas üzrə 339 magistr SABAH qruplarından məzun olur.

Hazırda Elm və Təhsil Nazirliyi SABAH qrupları 10 ali təhsil müəssisəsini, 7 ixtisas istiqaməti üzrə (təhsil, texniki, təbiət, humanitar, iqtisadiyyat, incəsənət, idman) 55 ixtisası, 2846 tələbəni və bu ilin məzunları da daxil olmaqla ümumilikdə 2014–2024-cü illər ərzində 6842 məzunu (bakalavr və magistr pillələri üzrə) əhatə edir.

Ümumilikdə bu qruplar üzrə 2014–2024-cü illər ərzində məzunlar da daxil olmaqla tələbə sayı 9688 nəfər olub.

SABAH qrupları layihəsi əmək bazarının artan tələblərinə müvafiq olaraq intellektual və yaradıcılıq potensialının inkişafı, ali təhsilin keyfiyyətinin yüksəldilməsi və tədrisin təşkilində mütərəqqi forma və metodların tətbiqini təmin etmək məqsədilə fəaliyyətə başlayıb.

# Qazaxıstanlı qonaqlar Elmi Bərpa Mərkəzində

Muzey Sərvətləri və Xatirə Əşyalarının Elmi Bərpa Mərkəzi müxtəlif ölkələrin aidiyyəti təşkilatları ilə əlaqələr qurub.

Bu günlərdə Qazaxıstan Milli Muzeyinin Bərpa və konservasiya xidmətinin rəhbəri Gülsarə Mukaşeva və gənc bərpaçılardan ibarət nümayəndə heyəti Muzey Sərvətləri və Xatirə Əşyalarının Elmi Bərpa Mərkəzində olub.

Qonaqlar mərkəzlə yaxından tanış olub, onlara qurumun tarixi və fəaliyyəti haqqında ətraflı məlumat verilib.

Bərpaçı-rəssamlarla təcrübə mübadiləsi aparılıb, bərpaçılıq sahəsində tətbiq edilən yeniliklər müzakirə olunub. Onlar üçün muzey əşyalarının, xüsusən də tekstil nümunələrinin konservasiyası və bərpasında istifadə edilən materiallar, yeni üsullarla bağlı ustad dərsi təşkil olunub, bərpa prosesi əyani şəkildə nümayiş etdirilib.



Sonda xatirə şəkilləri çəkdirilib.

# Magistraturaya qəbulda hansı ixtisaslar üzrə yerlər boş qalıb?

## Dəmiryol nəqliyyatı, dinşünaslıq, pirotexniki vasitələrin texnologiyası...

Dövlət İmtahan Mərkəzi (DİM) 2024/2025-ci tədris ili üçün ali təhsil müəssisələrinin magistraturalarına qəbul olunmaq üçün keçirilən müsabiqənin nəticələri ilə bağlı bəzi statistik göstəriciləri (əsas yerləşdirmədən sonra) açıqlayıb.

Müsabiqənin nəticələrinə əsasən, ixtisaslaşma seçimində iştirak edən 15660 bakalavrdan 13484 nəfəri ali təhsil müəssisələrinin magistraturalarına qəbul olunub. 5996 nəfər dövlət sifarişi, 7488 nəfər ödənişli əsaslarla təhsil alacaq.

Nəticələrə əsasən, ali təhsil müəssisələrinin magistratura səviyyəsinə ayrılmış 15922 plan yerinin 84,69%-i dolub.

Magistraturaya qəbul 71 proqram üzrə aparılıb və proqramlar üzrə müsabiqə vəziyyəti müxtəlif olub. Fövqəladə hallar, hava nəqliyyatı, balıqçılıq, bədən tərbiyəsi, kosmik texnika və texnologiyalar mühəndisliyi, optotexnika, yanğın təhlükəsizliyi və aktyor sənətinə uyğun olan 24, 25, 52, 54, 60, 62, 71, 74 saylı proqramlara ayrılmış plan yerləri tam (100%) dolub. Ancaq nəzərə almaq lazımdır ki, bu proqramların bəziləri üzrə plan yerlərinin sayı az idi və onların tam dolacağı əvvəlcədən gözlənilirdi.

Ən aşağı müsabiqə vəziyyətinin formalaşdığı dəmiryol nəqliyyatı, dinşünaslıq, pirotexniki vasitələrin texnologiyası, çoxişlənən malların texnologiyası sahələrinə aid 8, 51, 63, 72 saylı proqramlara ayrılmış plan yerlərinin 70% və ya daha çoxu boş qalıb.

Müsabiqənin nəticələrinə əsasən, Azərbaycan Tibb Universiteti, Azərbaycan Dövlət Pedaqoji Universiteti, Dövlət Gömrük Komitəsinin Akademiyası, Naxçıvan Müəllimlər İnstitutu, Fövqəladə Hallar Nazirliyinin Akademiyası, Bakı Qızlar Universitetində plan yerləri tam (100%), Azərbaycan Dövlət İqtisad Universiteti, Dövlət İdarəçilik Akademiyasında 95%-dən çox, Azərbaycan Memarlıq və İnşaat Universiteti, Bakı Musiqi Akademiyası, Azərbaycan Turizm və Menecment Universiteti, Milli Aviasiya Akademiyası, Azərbaycan Dövlət Dəniz Akademiyasında 90%-dən çox dolub.

Ən zəif nəticə (41% və daha aşağı) Azərbaycan Əmək və Sosial Münasibətlər Akademiyası, Bakı Xoreoqrafiya Akademiyası və Azərbaycan İlahiyyat İnstitutuna aiddir.

# Ölkəmiz Rusiyada milli teatrlar konqresi və yay festivalında təmsil olunub

əvvəli səh. 1-də

Azərbaycan mədəniyyət nazirinin müşaviri Oleq Əmirbəyov "Maarif və təhsil: milli teatrlar yeni mənaların doğuş nöqtələri kimi", Akademik Milli Dram Teatrının direktoru İlham Əsgərov "Milli teatrın gələcəyi: ənənə və innovasiyanın balansı" mövzusunda panel-müzakirələrdə çıxış ediblər.

Konqres çərçivəsində Aleksandrinski Teatrı, Tatarıstan Dövlət Akademik Milli Teatrı, Başqırd Dövlət Akademik Milli Dram Teatrı və Kalmıkiya Milli Dram Teatrının rəhbərləri ilə qarşılıqlı qastrol səfərləri, festivallarda iştirak və master-klasların təşkili haqqında müzakirələr aparılıb.




Qeyd olunub ki, ötən il Azərbaycan Dövlət Akademik Milli Dram Teatrı və Aleksandrinski Teatrı arasında yaradıcılıq proqramı hazırlanıb və Sankt-Peterburq Beynəlxalq Mədəniyyət Forumu zamanı iki teatrın əməkdaşlığına dair memorandum imzalanıb. Bu çərçivədə Akademik Milli Dram Teatrında "Rusiya səhnəsinin seçilmiş obrazları" adlı sərginin açılışı olub. Aleksandrinski Teatrının təşəbbüsü və Azərbaycan Mədəniyyət Nazirliyinin dəstəyi ilə təhsil proqramı həyata keçirilib.

Bu ilin sentyabr ayında iki teatr arasında mübadilə qastrolu təşkil olunacaq. Aleksandrinski Teatrında Azərbaycan teatrının tarixindən bəhs edən sərgi də açılacaq.

# Kamera musiqisi axşamı

M.Maqomayev adına Azərbaycan Dövlət Akademik Filarmoniyası Kamera və Orqan Musiqisi Zalının səhnəsində "Kamera musiqisi axşamı" keçirilib.



İyulun 2-də gerçəkləşən konsertdə respublika və beynəlxalq müsabiqələr laureatları Qəmər Kərimli (violin), Nicat Feyziyev (violin), Georgi İmanov (violonçel), Çolpon Amanjolova (viola), Nərmin Rzayeva (piano) və Mirxalid Məmmədzadə (fleyta) çıxış ediblər.

Proqramda A.Dvorjakın "2 nömrəli piano kvinteti" (A-dur, op.81) və V.A.Motsartın "Fleyta, violin və violonçel üçün 1 nömrəli kvartet"i (D-dur, K.285) səsləndirilib.

İfaçıların çıxışları alqışlarla qarşılanıb.

# ATMU-da "Məzun günü"

Azərbaycan Turizm və Menecment Universitetində (ATMU) "Məzun günü" keçirilib. Tədbirdə çıxış edən ATMU-nun rektoru İlham Mədətov bu il bakalavriat səviyyəsində 396, magistratura səviyyəsində 126 nəfərin məzun olduğunu bildirib.



Rektor diqqətə çatdırıb ki, Avstriyanın IMC Krems Tətbiqi Elmlər Universiteti ilə ikili diplom proqramı çərçivəsində ATMU-dan indiyədək ümumilikdə 286 nəfər iki diplom əldə edib. Ölkəmizdə ilk dəfə ATMU-da gerçəkləşən istehsalat təcrübəsi semestrinin tətbiqi sayəsində tələbələr Azərbaycanda, eləcə də Türkiyənin turizm müəssisələrində peşəkar vərdişlərə yiyələniblər.

Qeyd olunub ki, universitet indiyədək 30 xarici ali məktəb, 34 beynəlxalq təşkilat və şəbəkə ilə əlaqə qurub. "Times Higher Education" (THE) beynəlxalq reytinq agentliyi tərəfindən "THE Impact – 2024" üzrə sıralamada ATMU iki istiqamət üzrə 801+ qrupda qərarlaşıb. BMT-nin Dayanıqlı İnkişaf Məqsədlərinə uyğun olaraq müəyyən edilən bu reytinqdə ATMU "Layiqli əmək və iqtisadi artım", habelə "Davamlı şəhərlər və icmalar" göstəriciləri üzrə 801-1000 qrupundadır.

Dövlət Turizm Agentliyi sədrinin müşaviri Kənan Quluzadə, Bakı Turizm Peşə Məktəbinin direktoru Neylufər Kərimova, Avstriyanın IMC Krems Tətbiqi Elmlər Universitetinin AATP üzrə koordinatoru Jens Peter məzunları təbrik edib, onların ölkəmizdə turizm sahəsinin sürətli inkişafına töhfə verəcəklərinə, Azərbaycana sədaqətlə xidmət göstərəcəklərinə əminliklərini bildiriblər.

Mərasimdə 2023/2024-cü tədris ili məzunlarından ixtisas, fakültə və universitet birincilərinə plaketlər, ATMU və Avstriyanın IMC Krems Tətbiqi Elmlər Universitetinin məzunlarına isə diplomlar təqdim olunub.

# Şagirdlər beynəlxalq müsabiqədə uğur qazanıblar

Bakı Şəhər Mədəniyyət Baş İdarəsinin tabeliyində fəaliyyət göstərən Süleyman Ələsgərov adına 1 nömrəli Uşaq incəsənət məktəbinin şagirdləri Londonda keçirilən "Golden Time Talent" adlı onlayn beynəlxalq müsabiqədə uğurla iştirak ediblər.

Məktəbin fortepiano ixtisası üzrə VII sinif şagirdləri Nurcan Cəfərova (müəllim – Zoya Səfərova) və Xədicə Əhmədova (müəllim – Nərminə Əliyeva) ansambl ifası üzrə çıxış edərək Qran-pri mükafatına layiq görülüblər.

№50 (2115)
5 iyul 2024
www.medeniyyet.az

# “Ordubad” Dövlət Tarix-Mədəniyyət Qoruğu ilə bağlı Nazirlər Kabinetinin qərarı



“Ordubad” Dövlət Tarix-Mədəniyyət Qoruğunun sərhədləri və mühafizə zonası, eləcə də qoruq ərazisinin xüsusi rejimi təsdiq edilib.

Baş nazir Əli Əsədov bununla bağlı Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2024-cü il 29 iyun tarixli 323 nömrəli Qərarını imzalayıb.

Qərara 2 nömrəli əlavədə (“Ordubad” Dövlət Tarix-Mədəniyyət Qoruğunun ərazisinin xüsusi rejimi) qeyd olunur ki, qoruğun məqsədi ərazidə yerləşən abidələrin və etnoqrafik materialların mühafizəsindən, tədqiqi və səmərəli istifadəsindən, habelə ərazinin təbii landşaftını və həcm-planlaşdırma quruluşunu pozmadan onun tarixi-memarlıq görkəminin qorunmasından, bərpası və abadlaşdırılmasından, müasir turizm infrastrukturunun qurulmasından, yerli sakinlərin yaşayışı üçün əlverişli şəraitin təmin edilməsindən ibarətdir.

Qoruq Naxçıvan Muxtar Respublikasının Mədəniyyət Nazirliyi tərəfindən idarə edilir. Qoruğun ərazisi tarix və mədəniyyət abidələrinin qorunması və istifadəsi, elmi tədqiqat, təlim-tərbiyə, turizm, istirahət (rekreasiya), habelə ənənəvi sənətkarlıq və sair məşğuliyyət növlərinin nümayişi və inkişaf etdirilməsi məqsədləri üçün istifadə edilir. Qoruq ərazisində abidələrin siyahıya alınması, onların pasportlaşdırılması nazirlik tərəfindən həyata keçirilir. Qoruğun ərazisində arxeoloji abidə aşkar olunarsa, nazirliyin icazəsi olmadan və lazımi elmi tədbirlər görülmədən inşaat və təsərrüfat işlərinin aparılmasına yol verilmir. Abidələrdən istifadə onların qorunub saxlanılmasına zərər vurmamalı və tarixi-bədii dəyərinə xələl gətirməməlidir. Nazirliyin razılığı olmadan yeni aşkar edilmiş memarlıq abidəsində tədqiqat işlərinin aparılması qadağandır.

Qoruq ərazisində yerləşən abidələrin elmi tədqiqi, bərpası, regenerasiyası, rekonstruksiyası və konservasiyasında müvafiq beynəlxalq təşkilatlar Azərbaycan Respublikası Nazirlər Kabinetinin razılığı ilə iştirak edə bilərlər.

# “Naxçıvan istedadları” – festivalın qalibləri mükafatlandırılıb



Naxçıvan Dövlət Milli Dram Teatrında “Naxçıvan istedadları” incəsənət festivalının mükafatlandırma mərasimi keçirilib. Festival Naxçıvan Muxtar Respublikasının (NMR) yaradılmasının 100 illiyinə həsr olunub.

NMR mədəniyyət nazirinin müavini, nazir vəzifəsini müvəqqəti icra edən Həsən Seyidov festival haqqında məlumat verib. Deyib ki, layihənin məqsədi muxtar respublikada fəaliyyət göstərən uşaq musiqi, incəsənət və bədii sənətkarlıq məktəbləri şagirdlərinin yaradıcılıq qabiliyyətlərini aşkarlamaq, onlarda milli musiqiyə marağı artırmaq və səhnə təcrübəsi aşılamaqdan ibarətdir. Festivalda fərdi nominasiyalar üzrə 378 şagird, kollektiv nominasiyalar üzrə isə 55 kollektiv iştirak edib. Onlardan fərdi nominasiyalar üzrə 126 şagird, kollektiv nominasiyalarda isə 17 kollektiv II turda iştirak haqqı qazanıb.

Naxçıvan MR-də Prezidentin səlahiyyətli nümayəndəliyinin əməkdaşı Tükəzban Quliyeva və NMR Nazirlər Kabineti Aparatının Humanitar və sosial məsələlər şöbəsinin müdiri Sevinc Cabbarovanın çıxışlarından sonra festivalın qalibləri mükafatlandırılıb. Fərqlənən şagirdlərə diplom və fəxri fərmanlar təqdim olunub.

Sonda qalib şagirdlər konsert proqramı ilə çıxış ediblər.

# “Love butik” növbəti dəfə göstərilib




Qazax Dövlət Dram Teatrında yazıçı Jalə İsmayılın ”Ametist xanım və Apatit bəy” pyesi əsasında hazırlanan ”Love butik” tamaşası növbəti dəfə nümayiş olunub.

Tamaşaçılar arasında Qazax-Tovuz RMİ-nin rəis müavini Səbuhi Xasməmmədov, Azərbaycan Dövlət Akademik Musiqili Teatrın direktor müavini Vəfa Mühacirova, Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət Universitetinin müəllimi Aliyə Dadaşova da olublar.

Nümayişdən sonra yaradıcı heyətlə tamaşanın müzakirəsi aparılıb, qeydlər və təkliflər səsləndirilib.

Qeyd edək ki, tamaşanın quruluşçu rejissoru Mirzə Nicat, rəssamı Səyyat Məmmədov, musiqi tərtibatçısı Vahid Bayramovdur.

# Ərzincanda Şah İsmayılın vəfatının 500-cü ildönümünə həsr olunan konfrans

Türkiyənin Ərzincan şəhərində Şah İsmayıl Xətainin vəfatının 500-cü ildönümünə həsr olunan beynəlxalq konfrans keçirilib.

Tədbirə Türkiyə, Azərbaycan, Özbəkistan, Böyük Britaniya və İrandan səfəvişünas alimlər qatılıb. AMEA-nın Tarix və Etnologiya İnstitutunun dosentləri Tofiq Nəcəfli, Mübariz Ağalarlı, Əhməd Quliyev, Folklor İnstitutunun professoru Füzuli Bayat, BDU-nun professoru Zabil Bayramlı, Kastamonu Universitetində çalışan azərbaycanlı alimlər Namiq Musalı və Vüsalə Musalı, İrandan azərbaycanlı alim Şəhram Pənahi konfransda iştirak ediblər.

Təqdim olunan məruzələrdə Azərbaycan Səfəvi dövlətinin qurucusu Şah İsmayılın həyatı, fəaliyyəti, onun sufi-təsəvvüf baxışları, həmçinin Səfəvi dövlətinin etnik mənsubiyyəti, Səfəvi hökmdarının Sarıqaya yaylağında keçirdiyi Ərzincan toplantısı, Azərbaycan ədəbiyyatında Şah İsmayıl və digər məsələlər dövrün mənbələri və tədqiqat əsərlərinə istinadən diqqətə çatdırılıb.

Konfrans iştirakçıları Ərzincan bölgəsinin tarixi-memarlıq abidələri ilə də tanış olublar.

# “Şirvanda kino günləri”

## Regional idarə və AKİ-nin birgə təşkilatçılığı ilə

Azərbaycan Kinematoqrafçılar İttifaqı (AKİ) və Şirvan-Salyan Regional Mədəniyyət İdarəsinin (RMİ) birgə təşkilatçılığı ilə ”Şirvanda kino günləri” layihəsinə başlanılıb.

Layihə çərçivəsində ilk filmlərin nümayişi iyulun 2-də Biləsuvar rayon Heydər Əliyev Mərkəzində gerçəkləşib.

Kinosevərlər əvvəlcə İlqar Nəcəfin “Suğra və oğulları” tammetrajlı bədii filminə baxıblar. Həmçinin Şirin Əhmədovun “Qütb ulduzu”, Amil Amalın “Titrəmə” qısametrajlı bədii, Pərviz Həsənovun “Uşaqlıq fotosu” və İntiqam Hacılının “İlkin şəhid” qısametrajlı sənədli filmləri nümayiş etdirilib.



Biləsuvar Rayon İcra Hakimiyyətinin başçısı Faiq Qürbətov, Şirvan-Salyan RMİ-nin rəis müavini Emin Mustafayev də tamaşaçılar arasında olublar.

İyul ayının birinci yarısınadək davam edəcək layihə üzrə Şirvan şəhəri, Neftçala, Salyan və Hacıqabul rayonlarında da adıçəkilən filmlərin nümayişi təşkil olunacaq.

Xatırladaq ki, AKİ tərəfindən bundan əvvəl 2022-ci ildə “Cənubda kino günləri” başlığı ilə Lənkəran, Biləsuvar və Lerik rayonlarında film nümayişləri təşkil edilmişdi.

# Xatirə gecəsi, sərgi, görüş...

Salyan rayon Heydər Əliyev Mərkəzində Vətən müharibəsinin şəhid baş çavuşu Anar Vəlizadənin 30 illik yubileyinə həsr edilən xatirə gecəsi keçirilib.

Əvvəlcə şəhid haqqında film nümayiş etdirilib. Çıxış edənlər qəhrəmanın keçdiyi qısa, lakin şərəfli ömür yolundan söz açıblar.

Bildirilib ki, Salyanın Cəngən kəndində anadan olan Anar Vəlizadə Daxili Qoşunların baş çavuşu kimi 2020-ci ilin Vətən müharibəsində Füzuli, Cəbrayıl, Qubadlı və Şuşayadək döyüş yolu keçib. Bir neçə dəfə yaralansa da, yenidən cəbhəyə qayıdıb və düşmənin çoxsaylı canlı qüvvəsini və texnikasını məhv edib. 2020-ci il noyabrın 7-də Şuşa şəhəri uğrunda gedən döyüşlərdə şəhidlik zirvəsinə ucalıb. Ölkə başçısının müvafiq sərəncamları ilə ölümündən sonra “Vətən uğrunda”, Cəbrayılın və Şuşanın azad olunmasına görə medalları ilə təltif edilib.






Salyan rayon Mədəniyyət Mərkəzinin solistləri tərəfindən vətənpərvərlik ruhunda mahnılar ifa olunub, şeirlər səsləndirilib.

***



Neftçala rayon Mərkəzi Kitabxanasında şair Tubu İmanla görüş keçirilib.

Şairin yaradıcılığından söz açılıb. Müəllifin “Şəhidlər”, “Haqqın nurlu yolu”, “Həyat eşqim” və “Görəsən, hara tələsirik?” adlı kitabları oxuculara təqdim edilib. Sonda şair oxucuların suallarını cavablandırıb, şeirlərini söyləyib.

***



“Yaşıl dünya naminə həmrəylik ili” ilə əlaqədar Gədəbəy rayon mədəniyyət müəssisələri, İcra Hakimiyyəti və YAP Gədəbəy rayon təşkilatının birgə təşkilatçılığı ilə rayon ərazisində yerləşən Heydər Əliyev parkında və başqa məkanlarda iməcilik keçirilib. Ərazilər tullantılardan təmizlənib, təmizlik-abadlıq işləri aparılıb.

***

Siyəzən rayon Heydər Əliyev Mərkəzində kəlağayı sənətinə həsr olunmuş “İncə sədəfli aləm” adlı sərgi təşkil edilib. Qeyd olunub ki, Azərbaycan kəlağayı sənəti 2014-cü ildə UNESCO tərəfindən Bəşəriyyətin Qeyri-Maddi Mədəni İrsinin Reprezentativ Siyahısına daxil edilib. Kəlağayı gözəllik, ismət, ləyaqət, ehtiram, sədaqət rəmzi olmaqla yanaşı, özündə Odlar Yurdu Azərbaycanın qədim tarixini, mədəniyyətini, adət-ənənələrini yaşadır.

Sərgidə rəssamların əl işləri və gənc xanımların təqdimatında kəlağayılar nümayiş olunub. Sonda milli musiqi nümunələri ifa edilib.

**Hazırladı: N.Məmmədli**

# Görülən işlər və qarşıda duran vəzifələr müzakirə olunur



Qəni Vəliyev adına Lənkəran şəhər Mədəniyyət Mərkəzində Lənkəran-Astara RMİ-nin rəisi Bəxtiyar Qılıncovun iştirakı ilə birinci yarımilin yekunlarına həsr olunmuş hesabat yığıncağı keçirilib.

İdarənin rəisi görülmüş işlər, mövcud problemlər və qarşıda duran məsələlərlə bağlı məlumat verib. Həmçinin mədəniyyət müəssisələrinin fəaliyyətinin müasir tələblərə uyğunlaşdırılmasının, internet resurslarından, sosial şəbəkələrin imkanlarından səmərəli istifadənin vacibliyindən danışıb.

İdarənin əhatə etdiyi rayonlarda fəaliyyət göstərən müəssisə rəhbərlərinin çıxışları dinlənilib, müvafiq tapşırıq və tövsiyələr verilib.

***

Mərkəzi Aran Regional Mədəniyyət İdarəsinin (RMİ) 2024-cü ilin birinci yarımili ərzində görülmüş işlər və qarşıda duran vəzifələrə dair hesabat iclası keçirilib. Ağdaş rayon Heydər Əliyev Mərkəzində təşkil olunan iclasda mədəniyyət müəssisələri rəhbərlərinin hesabat dövründə görülmüş işlər, həmçinin “Yaşıl dünya naminə həmrəylik ili”nə həsr edilmiş tədbirlər haqqında çıxışları dinlənilib. O cümlədən bu il ilk dəfə olaraq idarənin tabeliyindəki musiqi, incəsənət məktəb və mərkəzlərinə şagird qəbulu imtahanlarının mərkəzləşdirilmiş şəkildə həyata keçirildiyi diqqətə çatdırılıb.



İdarənin rəisi Aydın Bəşirov qarşıda duran vəzifələr barədə danışaraq qeyd edib ki, əsas məqsəd mədəniyyət müəssisələrinin fəaliyyətinin təkmilləşdirilməsi, əhaliyə göstərilən mədəni xidmətlərin səviyyəsinin yüksəldilməsidir.

İclasda mövcud problemlər və onların həlli ilə bağlı görüləcək işlər barədə müzakirələr aparılıb. Müəssislərin fəaliyyətinin təşkili istiqamətində tapşırıq və tövsiyələr verilib.

# Ağstafada qədim ibadətgah aşkar edilib

Ağstafa rayonundakı Tavatəpə abidəsində Azərbaycan-İtaliya beynəlxalq arxeoloji ekspedisiyası tərəfindən tədqiqat işləri aparılır. Üç ildir davam edən tədqiqatlar artıq öz nəticəsini verib. Araşdırmalar zamanı məlum olub ki, Son Tunc – İlk Dəmir dövrünə aid abidədə ibtidai ritual məkanı – ibadətgah qalıqları aşkar olunub. Bu tapıntı öz unikallığına görə bütövlükdə Qafqazda bu qəbildən ilk nümunə hesab edilir.



3500 yaşı olan Tavatəpə abidəsi Ağstafa rayonunun Aşağı Kəsəmən kəndində, Kür çayından 1,5 km aralıda yerləşir. Son Tunc – İlk Dəmir dövrünə, Xocalı-Gədəbəy mədəniyyətinə aid abidə coğrafi yerləşmə mövqeyinə görə diqqəti cəlb edir. Strateji əhəmiyyətli abidənin Kür çayına yaxın olması bura insanların daha çox gəliş-gedişi üçün səbəblərdən biri olub.

İtaliyadan gələn arxeoloji ekspedisiyanın rəhbəri Nikola Laneri deyir ki, abidə onları unikallığı ilə təəccübləndirib. Üçillik birgə qazıntıların bəhrəsini görməyə başlayan arxeoloqlar builki qazıntılar zamanı maraqlı tapıntı aşkar ediblər.

Qazıntılar zamanı Tavatəpədən ərzaq və çörək istehsalı mərkəzi, quyular, böyük ərzaq ehtiyatlarının saxlanılması üçün yerlər, ocaq qurğuları, yüksək temperaturda bişmiş gil və torpaq hissələri, dən üyüdən alətlər, çörəyin üzərinə xüsusi naxışlar vurmaq üçün gil möhürlər üzə çıxarılıb.

Hazırda ərazidə aşkar olunan saxsı qabların bərpası və restavrasiyası, onların qrafik təsviri həyata keçirilir. Analiz üçün çoxsaylı nümunələr götürülərək İtaliyanın qabaqcıl laboratoriyalarına göndərilib. Həmçinin ağac qalıqları və torpağın polinoloji analizləri aparılır.

# Paşatəpədə Neolit dövrünə aid kənd qalıqları



Cəlilabad rayonunda üç ildir arxeoloji araşdırma aparılan qədim yaşayış məskəni Paşatəpə abidəsində ilk dəfə qədim kənd izləri aşkarlanıb. Qazıntılar zamanı çiy kərpicdən inşa edilmiş yaşayış evlərində həm də dini ayinlərin icra olunması üçün xüsusi yerlər də üzə çıxıb.

Cəlilabad rayonunun Cəfərxanlı kəndində yerləşən Paşatəpə qədim yaşayış məskənində arxeoloji qazıntı işlərinə 2022-ci ildə başlanılıb. Qazıntılar zamanı hər mövsüm olduğu kimi, bu il də maraqlı maddi mədəniyyət nümunələrinin tapılması buranın tarixi əhəmiyyətini daha da artırıb.

AMEA-nın Arxeologiya və Antropologiya İnstitutunun baş elmi işçisi tarix elmləri doktoru Vəfa Mahmudova bildirib ki, ərazidə çoxsaylı yaşayış evləri qalıqlarının üzə çıxması burada bir məhəllənin olduğunu deməyə əsas verir. Tapılmış nümunələrin araşdırılması Muğan mədəniyyətində erkən əkinçilik, sənətkarlıq, eləcə də digər sahələrlə bağlı maraqlı məlumatları üzə çıxara bilər.




# Hindistandan kinoçıxardanlar gəliblər...

## Görəsən, kino ölkəsinin sənətçiləri niyə burada film çəkirlər?

**Bu günlərdə "Azərbaycanfilm" kinostudiyasının həyatində qələbəlikdir. Çəkiliş meydançası, əlbisələr, pavilyon çəkilişi üçün avadanlıq, dekorasiyalar və s. Maraqlısı da budur ki, bütün heyət də hindistanlılardır. Bir sözlə, Bakıda əsl hind filmi əhvalı.**

Baş verənlərdən xəbərdar olmaq üçün kinostudiyaya üz tutdum. Məlum oldu ki, çəkilişlər "Film Bridge Azerbaijan" şirkətinə həvalə olunub. Filmin prodüseri Emin Quliyev layihə haqqında ətraflı məlumat verdi:

– Hazırda Hindistanın cənubunda çox məşhur olan aktyor Ajut Kumarın rol aldığı "Vidaamuyarçı" ("Vidaamuyarchi") filminin çəkilişləri davam edir. Niyə davam edir deyirəm, çünki bu filmin çəkilişləri ötən ilin oktyabr ayında başlayıb, dekabrda fasilə verilib. Bu dövrdə təkcə çəkiliş deyil, müəyyən hazırlıq işlərini də qeyd etməliyəm. Sonra soyuqlar düşdüyü üçün çəkiliş dayandırıldı və indi yenidən davam etdirilir.

*– Onda belə çıxır ki, regionlarda da çəkilişlər olub?*

– Bəli. Xızı, Qobustan, Ələt, Şamaxı ərazisində çəkilişlər etdik.

*– Bu, birgə layihədir, yoxsa təkcə məkan çəkilişi?*

– Əvvəla, onu deyim ki, indiyədək 30-dan çox hind film layihəsini Azərbaycana gətirmişəm. Onlar bizi tanıyaraq bura gəlirlər. Bu isə eyni tərəfdaşla reallaşdırdığım dördüncü layihədir. Onlar ilk növbədə, məkanlara gəlib baxıblar. Azərbaycan Mədəniyyət Nazirliyi ölkəmizin təbliği məqsədilə bu cür çəkilişlərin aparılmasına dəstək olur.

*– Bu layihədə bizim aktyorlar da rol alıblar?*

– Xalq artisti Vidadi Həsənov, həmçinin Cavanşir Hadıyev, Tural Əhməd, Vüsalə Ağayeva, Svetlana Bulax filmdə çəkiliblər.

*– Filmin çəkilişləri ilə bağlı ötən il də sosial şəbəkələrdə paylaşımlar olmuşdu...*

– Bəli, Ajut Kumar bu müddət ərzində Azərbaycanı çox sevdiyini deyir.

*– Maraqlıdır, niyə məhz Azərbaycanı seçiblər? Filmdə hadisələr bütünlüklə Azərbaycanda baş verir, ya necə?*

– Çəkilişlə bağlı səhralıq məkan axtarışında olublar. Layihəyə başlayanda seçimdə Birləşmiş Ərəb Əmirlikləri (Abu-Dabi şəhəri), habelə Mərakeş və Azərbaycan var idi. Hər üç ölkəni gəzib Azərbaycanı seçdilər. Səhralığı Qobustanda və Xızıda lentə aldılar. Bədii filmin birinci hissəsində hadisələr bütünlüklə Azərbaycanı əks etdirir. Sonradan Gürcüstanda da çəkilişlər olmalı idi. Azərbaycana tam uyğunlaşdıqları üçün Gürcüstan səhnələrini də Azərbaycanda lentə aldılar. Bir məqamı da qeyd edim ki, filmi lentə alan şirkət Hindistanın cənubunda, Tamilnad ştatının Çennai şəhərində yerləşir.

*– Şirkətiniz indiyədək daha hansı ölkələrdən istehsalçıları Azərbaycana gətirməyə nail olub?*

– Bu günə kimi Almaniya, Fransa, Serbiya, Pakistan, Sinqapur və s. ölkələrdən kino şirkətləri ilə 50-dən artıq layihədə



çalışmışam. Yerli istehsallarımız da olub. Bunlar əsasən reklam xarakterli məhsullardır.

*– Etiraf edim ki, sizin şirkət haqqında ilk dəfədir məlumat alıram...*

– Yerli film bazarını hamı tanıyır. Biz xarici bazarla işləyirik deyə bir qədər kölgədə qalmışıq. Təkcə Hindistanla sayca 36-cı layihəmizdir. Bir ay əvvəl Hindistanla "Mister X" adlı layihəni başa çatdırdıq. Azərbaycanda 10 günlük çəkiliş oldu. Ağ şəhərdə lentə alındı. Mədəniyyət Nazirliyimiz bu filmin çəkilişinə də məkan sarıdan dəstək verdi.

*– Siz sırf prodüser kimi çalışırsınız?*

– Bəli, şirkətin rəhbəri və prodüser kimi.

***

Sonda isə onu da qeyd edim ki, "Vidaamuyarchi" ("Cəhd etmək") filmi rejissor Magizh Thirumeni tərəfindən lentə alınan döyüş filmidir. "Lyca Productions" və "Subaskaran Allirajah" tərəfindən istehsal olunur. Filmin Hindistan premyerası 2024-cü ilin 31 oktyabr tarixinə nəzərdə tutulub.

**Lalə Azəri**

# "Kür – çaylar anası"

## Sənədli filmin çəkilişləri davam edir

Mədəniyyət Nazirliyi və Kino Agentliyi (ARKA) tərəfindən 2023-cü ilin iyul-oktyabr aylarında təşkil edilən film layihələri müsabiqəsində qalib olmuş layihələrin dövlət dəstəyi ilə istehsalı həyata keçirilir.

Müsabiqənin 11 qalib layihəsindən biri olan "Kür – çaylar anası" sənədli filminin çəkilişləri davam etdirilir.

"OD Media Production" şirkəti tərəfindən istehsal olunan filmin rejissoru Seyran Mahmudoğlu, ssenari müəllifi Əkbər Nəcəf, prodüseri Fariz Əhmədovdur.

Çəkilişlər Kür çayının mənbəyindən mənsəbinədək – Türkiyə, Gürcüstan və Azərbaycan ərazisində aparılır. Filmin əsas ideyası keçmişdən bu günə Kür çayının tarixi, mədəni, iqtisadi rolunu ön plana çıxarmaq və bəşəriyyət üçün əhəmiyyətini ifadə etməkdir.

Qeyd edək ki, müsabiqə dövlət tərəfindən kino sahəsinin inkişafının dəstəklənməsi, kinematoqrafiya fəaliyyətinin təşviq edilməsi və yerli kinematoqrafçıların təcrübəsinin artırılması, eləcə də bu sahədə özəl sektorun dəstəklənməsi məqsədilə gerçəkləşdirilib.



# Həmişə toyda – yaxud Fiqaro niyə səhnəyə qayıdıb?

**Oradan başlayım ki, komediya olduqca mürəkkəb janrdır. Çünki istənilən komik situasiya səhnə qəlibinə girə bilmir. Və ya istəsəniz də, komediyanı oynamaq ilə göstərmək arasındakı fərqi heç də hər kəs anlamır. Bəlkə heç anlamaq istəmir. Özü də bu hər iki tərəfə aiddir: səhnədə oynayana da, tamaşa edənə də. Amma bütün teatrlar və mövzular üçün dəyişməz olan bir aksioma da budur ki, aktyor oynamalıdır. Gülmək və düşünmək tamaşaçının öz ixtiyarındadır.**

Çünki komik əsərdə tragikomik, yaxud da ifrat "komedixana"da "təki tamaşaçı gülsün"ə hesablanan oyun hər zaman uğursuz olur. Onların populyarlığı sabun köpüyüdür və sənət adına heç nə yoxdur!...

Mənə elə gəlir ki, 84 ildən sonra səhnəmizdə yenidən çalınan "Fiqaronun toyu"na (söhbət Pyer Bomarşenin pyesindən gedir, illərdir opera səhnəmizdə oynanılan eyniadlı opera (V.A.Motsart) ilə qarışdırmayaq) aid fikirlərimizdə də ana xətt məhz bu olacaq: göstərmək, yoxsa oynamaq?

Xəbərdar olan və olmayan hər kəs üçün deyim ki, iyunun 29-da və 30-da (29 iyun premyerasına baxmışam, mülahizələrim də o heyət üzərindən olacaq) Azərbaycan Dövlət Milli Gənc Tamaşaçılar Teatrında "Fiqaronun toyu" komediyasının premyerası oldu. Yeri gəlmişkən, bu, teatrın "milli" status almasından sonra ilk premyerasıdır.

P.Bomarşenin 1784-cü ildə yazdığı pyes əsasında hazırlanmış tamaşa eyni zamanda Əməkdar artist Nicat Kazımovun özünəməxsus rejissor duyumu və yumorunu, daha doğrusu, komediya janrına fərqli istiqamətlərdə baxışını müşahidə etmək imkanı idi. Bundan əvvəl Akademik Milli Dram Teatrında bu janrda tamaşalar qoyan rejissorun məşhur əsərə müraciəti həm də cəsarət hesab oluna bilər. O səbəbdən ki, bu pyes hələ 1940-cı ildə "ana teatr"da səhnəyə qoyulsa da, cəmi 8 dəfə nümayiş olunub.

Üstəlik, rejissorun əsərdən irəli gələn sətiraltı mesajları, "ağıl puldan güclüdür", bir başqa mənada "axmağın varı ağıllının malıdır" prinsipinə çağdaş mühit nəsnələrilə nümayişkaranə ifadəsi diqqətdən yayınmır. Bütün hallarda, əsər qəliz olsa da, vəziyyət komediyası, yəni ani gedişlərin səhnə həllinə verdiyi imkan baxımından maraqlıdır.

***

Keçək tamaşanın özünə. Quruluşçu rəssam Mustafa Mustafayev sadə, parlaq, rəngarəng və sözsüz ki, texniki baxımdan rahat formanı seçib. Əslində, səhnə tərtibatçısının başqa yolu da yoxdur. Çünki tamaşada bütün hadisələr bir məkanda və eyni gündə baş verir. Burada bir səhnədə həm sarayı, həm saraydakı bağı, həm də ümumilikdə atmosferi müəyyən edən məkansızlığı görürük. Rəssamın səhnənin zalın solundakı hissəsindən istifadəsi ikinci dəfədir ki, xoşuma gəlir. Bundan əvvəl "Kod adı V.X.A"da da bu üsulla məkanı genişləndirməyə və tərtibata yeni atmosfer qatmağa nail olmuşdu.

Musiqi həllində, bəzi məqamlarda yersiz zonqları (teatr dilində buna belə deyilir), ümumi qışqırıq fonuna cingilti effektindəki keçidləri nəzərə almasaq, tərtibatçısı Zaur Rəşidov da işini yaxşı görüb.





Səsdən söz düşmüşkən, elə bu məqamdaca deyim ki, tamaşada səs ziyadə çoxdur. Hətta mənə elə gəldi ki, bu tamaşada aktyorların foniator (səs üzrə mütəxəssis) ilə təmasa ehtiyacları var. Bu təəssürat arada o qədər çox olurdu ki, balaca məkanda (üstəlik, teatrın zalı akustika baxımından o qədər də münasib deyil) bu qədər qışqırıq, hətta sükuta yaxın, pıçıltı tələb edən səhnələrdə belə yuxarı tonallıqda danışıq çox yorucu, qulaqbatırıcı idi.

Yenə də deyim ki, tərtibatda musiqi seçimi (sözsüz ki, burada rejissorun da imzası sezilir) uğurlu idi. Tamaşada V.A.Motsart ("Fiqaronun toyu") və C.Rossininin ("Sevilya bərbəri") musiqisindən sintezdə istifadə olunub və vokal hissələri Akademik Opera və Balet Teatrının solisti, istedadlı bariton Mahir Tağızadə səsləndirib deyə peşəkar alınıb. Amma ümumi səs həddən ziyadədir.

Bir-iki kəlmə də xoreoqrafik tərtibat barədə. Əməkdar artist Nailə Məmmədzadənin (tamaşanın proqramında qeyd olunan rəqslərin quruluşçusu) işi səliqəli görünürdü. İkihissəli məzhəkədə rəqs elementləri, ümumiyyətlə, hərəkətlə mətn arasında rabitə məhz lakoniklik istəyirdi ki, xoreoqraf bunu nəzərə almışdı. Yəni onsuz da mətn, mimika və mizan bolluğunda bir da aktyora izafi plastika lazımsızdır. Çünki bu, onu yormaqla yanaşı, tamaşanın ümumi yozumundakı axıcılığı itirə bilərdi.

***

Yuxarıda da qeyd etdiyim ki, əsər milli səhnəmizdə ötən əsrdə qoyulub. Cəfər Cabbarlının tərcüməsindəki pyesə bu dəfə səhnə redaksiyasını N.Kazımov edib və mətni yarıdan çox kəsib. Buna rəğmən, fikrimcə, mətn yenə də ağır və yüklüdür.

Məsələn, tamaşa daha çox Fiqaronun oyununa hesablandığından, üstəlik, rejissor ümumi ideyanı açmaq və onu müasir tamaşaçı üçün əlçatan etməkdən ötrü fərqli açıqlamalar (mizan həllində də) etdiyindən baş qəhrəmanın səhnələri və mətni çoxdur. Doğrudur, hadisələr onun üzərində qurulub və xüsusən o obraza seçilən aktyorların dinamikası dediyim məsələni elə də qabarıq qüsur kimi gözə soxmur. Amma final səhnələrində, xüsusən Fiqaronun özünə bəraət qazandıran tərcümeyi-hal monoloqunda bu qədər uzunçuluq lazım deyil. Çünki onun nişanlısına göz dikən qrafa Fiqaronun layiqli cavabına tamaşaçı lap əvvəldən onsuz da haqq qazandırır.

Süjeti qısa nəql etsək, qulluqçu Fiqaro ilə evin xadiməsi Süzanna toya hazırlaşırlar. Qraf Almaviva Süzannaya vurulub və toyun ilk gecəsi onu əldə etmək istəyir. Fiqaro ona düz otağının yanında otaq hazırlatdıran, içini cehizlə təmin edən Qrafın niyyətindən xəbərsizdir. Amma çoxbilmiş sevgilisi Süzanna



bu fədakarlığın arxasındakı əsl niyyəti yaxşı bilir və Qrafın ona vurğunluğunu və tamah salmasını nişanlısına açıb deyir. Eləcə də məsələni ərinin soyuqluğundan bezən və onu qısqandırmaq üçün uşaq oyunlarından belə çəkinməyən Qrafinyaya da bildirir. Sonda Qrafın niyyəti baş tutmur və tamaşa gənclərin toy mərasimi ilə bitir.

Bu tamaşada oynayan əksər aktyorları indiyədək ciddi, dramatik, bəzi tamaşalardakı tragikomik səhnələrdə gördüyümdən, komediyada oyunlarına bir az qəribsədim. Amma truppa özü oyununa və tamaşaçının münasibətinə qəti qəribsəmədi. Məhz bu məqam göstərdi ki, aktyoru bir qəlibə salmaq, yəni eyni ampluada saxlamaq ona edilən bəlkə də ən böyük pislikdir.

Düzdür, rejissorun seçdiyi truppadakılar arasında komediyanı oynamaqla göstərmək kimi incə keçidin mənğənəsində sıxılanlar da oldu. Yəni tamaşaçını güldürməyi hədəfləyib, düşündürməyi ona qurban verənlər var idi.

Konkret adlar üzərində dayanıb aktyor kimi komediyada bəlkə də debüt edən sənətçi dostlarımızı incitmək, həvəsdən salmaq istəmirəm. Amma onlara da aktyorluq kurslarında, yəni ali təhsil aldıqları zaman, heç olmasa, bir kurs bu janrın nəzəriyyəsi və ifadə formaları barədə dərslər keçilib. Üstəlik, N.Kazımov komediyanı, onun hədəf auditoriyasını və təsir gücünü ayırd edəcək təcrübədə quruluşçudur.

Tamaşanın Qraf Almavivası Manaf Dadaşov teatrın istedadlı və obrazdan-obraza sürətlə dəyişə bilən maraqlı aktyorlarındandır. Amma Qraf kimi özünü gülünc vəziyyətlərə salmağı, yəni obrazın qiyafəsinə girməyi sanki özünə yaraşdırmırdı. Mənə elə gəlirdi ki, o, az qala "Almaviva axmaq olsa da, mən ona gülmürəm" kimi tələb qoymuşdu qarşısına. Sözsüz ki, tərəf-müqabilləri ilə oyun zamanı bu o qədər də nəzərə çarpmırdı. Amma ümumən hiss olunurdu ki, o, obraz ilə özü arasında dialoqu tam tapa bilməmişdi.

Əməkdar artist Kəmalə Müzəffərin Qarafinyası, ərinin məhəbbətini, bir növ, əvvəlki ehtirasla ona bağlılığını qaytarmaq istəyən qadını ifadəsi gülüş doğurdu. Onun ərinin sevgisizliyindən dəliyə dönən qadına keçidləri də öz yerində. K.Müzəffəri tamaşaçı kimi ilk dəfə komediyada, özü də belə bir obrazda görürdüm. Ərinin məhəbbətini geri qaytarmaq üçün qulluqçularına qoşulub hər oyuna əl atan Qrafinya onun ifasında öz ifadə maneralarını düzgün tapmışdı. Hərçənd, iki məqamda mənə elə gəldi ki, biz "Cəza"ya (aktrisanın oynadığı monotamaşa) ani keçid etmişik. Deyəsən, aktrisa özü də bu ani yerdəyişməni sezdi və həmin anda toparlandı.

Tamaşanın uğurlu üçbucağı birmənalı Fiqaro (Sənan Kazımov), Kerubino (Nurlan Süleymanlı) və Süzanna (Aydan Həsənzadə) idi. Gənclərdən ibarət bu trio bütün tamaşa boyu tempi, ana ideyanı və obrazları ilə tamaşaçı rabitəsini ustalıqla saxladılar. Südəmər şorgöz Kerubino, sahibinə sadiq xidmətçi Fiqaro, ağıllı və hiyləgər Süzanna gənclərin təqdimatında fərqli vəziyyətlərə asanlıqla uyğunlaşmaqlarına eyham vurdu. İki gənc kişinin jestlər, mimikalar və sətiraltı ifadələrlə seçdikləri təqdimatlar yersiz, çılpaq jarqon kimi görünməsə də, yenə də müəyyən ixtisarı mümkündür.

Marselina (Sevinc Əziz) bu mövsümdə ikinci dəfədir ki, diqqətimi cəlb edir (hər iki rolu anadır) və fərqli təəssürata hesablanmış oyun göstərir. Ərə getməyə can atan, bunun üçün hətta Fiqaroya borc sənədinə belə qol çəkdirən Marselina rolu aktrisanın ifasında inandırıcı idi.

Əsərdən də bəllidir ki, sonradan Fiqaronun anası olduğu bilinən qadın oğlunun xoşbəxtliyi üçün əlindən gələni edir. Məni tamaşaçı kimi də Sevinc xanımın məhz ana obrazı cəlb elədi. Çünki bu zamandan sonra aktyorda xarakter parçalanması baş verir. Axı biz onu bu fakt üzə çıxanadək hiyləgər, fitnə-fəsad dolu qadın kimi görürdük. Sonra birdən-birə o, övlad həsrətli fədakar, sevgi dolu məsum anaya çevrilir. Məhz bu ani keçidlərdəki ikiləşmə S.Əzizin oyununa çox yaxşı oturdu.

Fanşetta (Fəridə Cəlilova) səhnədə bir gəlincik, hansısa cizgi filmindən personaj təəssüratını yaratdı və bu onun oyununda gözəl, zərif, oyun içində oyuncaq modelində qaldı. Qısacası, gənc aktrisa cazibədarlığı, gözəl fakturanı yaşıl donunun ətəyində gizlədərək avam, çılğın və sadəlövh qızcığazı valehedici göstərdi.

Bazil (Ramil Məmmədov), hakim Don Qusman Briduazon (Anar Seyfullayev), Antonio (Ceyhun Məmmədov) da ümumi ansamblı pozmadan, tamaşanın ümumi bölgüsünə hesablanmış zaman çərçivəsində yaxşı göründülər. Xüsusən R.Məmmədov tamaşanın sənət carçısı, zadəganların musiqidən, sənətdən imtinası ilə barışmayan etirazçı kimi komediyanın içərisindəki dramatizmini oynadı.

Tamaşada müasir zamanımızın əksər məqamlarda gülüş obyekti olan simalarına dostyana şarjlar da həm marağa səbəb oldu, həm də yerində və gülməli alındı. Ümumiyyətlə, rejissor bu xüsusda əndazəni gözləmişdi (hərçənd əsərdə də belə açıq məqamlar çoxdur) və ümumi fikrə özünün sənət insanı kimi narahat olduğu məqamları daxil eləmişdi. Məsələn, cəmiyyətdə fərdiyyətçilik, təbəqələşmə, sənətə və sənətkara münasibət, mənəvi aşınmalar, pulun gücü sayəsində istedad və bacarığın əl-qolunun bağlanmasına cəhdlər kimi xəbis xislətlərin ifşası farsın imkanları çərçivəsində idi.

Qısacası, tamaşaçı gülmək, əylənmək və (əgər istəsə) düşünmək üçün "Fiqaronun toyu"na "nəmər" yazdıra bilər...

**Həmidə Nizamiqızı**

№50 (2115)
5 iyul 2024
www.medeniyyet.az

# Aləmdə əbədi səsi qalan şair və maarifçi

## Yeganə medal-mükafatını ölümündən on gün əvvəl almışdı...



XIX əsrdə klassik Azərbaycan poeziyası ənənələrini uğurla davam etdirən, maarifçi məfkurənin inkişafında xüsusi xidmətləri olan söz sənətkarlarından biri də Seyid Əzim Şirvanidir. O, ədəbi aləmdə incə ruhlu lirik, cəmiyyətin sosial problemlərini tənqid edən satirik, əxlaqi-tərbiyəvi mövzularda mənzum hekayə və təmsillərin müəllifi kimi tanınıb. Bənzərsiz yaradıcılığında məhəbbəti nifrətə, sədaqəti xəyanətə, elm və mədəniyyəti isə cəhalətə qarşı qoyub. Şair oğluna yazdığı mənzum nəsihəti ilə müəllim-ata obrazının gözəl nümunəsini yaradıb:

*Cəfər, ey nuri-dideyi-Seyyid!*
*Qönçeyi-növrəsideyi-Seyyid!*
*Üləma haqqını riayət qıl,*
*Əhli-elmə həmişə hörmət qıl.*
*Demə, bu kafər, ol müsəlmandır,*
*Hər kimin elmi var: o, insandır.*

Seyid Əzim Seyid Məhəmməd oğlu Mir Cəfərzadə 1835-ci ildə Şamaxı şəhərində ruhani ailəsində anadan olub. 7 yaşında atası vəfat edir, anası ilə Dağıstanın Yaqsay kəndində yaşayan ana babası Molla Hüseynin yanına gedirlər. Əzim babasının himayəsində böyüyür, onun təlim-tərbiyəsinə diqqət yetirilir. O, 10 il Dağıstanda qalır və burada təhsil alır. Fars və ərəb dillərini mükəmməl öyrənir. Araşdırmalardan məlum olur ki, o, bu müddət ərzində Dağıstanda bir neçə yerli xalqın da dilini mənimsəyir.

Seyid Əzim məktəbli çağlarından klassik poeziyaya maraq göstərir, şairlərin əsərlərini mütaliə edir. Özü də arabir şeirlər yazır. 1853-cü ildə, 18 yaşında anası Gülsüm xanımla Şamaxıya qayıdır. Məşədi Mövsümün qızı Ceyran xanımla ailə qurur. İki il sonra təhsilini artırmaq üçün İraqa gedir. Bir neçə il Nəcəf və Bağdad şəhərlərində təhsil aldıqdan sonra Şama (indi Suriyanın paytaxtı Dəməşq şəhəri) gedir. Orada bir müddət qalır və Şamaxıya qayıdır. Sonra yenidən səfərə çıxır. Bu dəfə Məkkə və Mədinədən keçərək Qahirədə olur. Səfər etdiyi şəhərlərdə təkcə elmini artırmır, eyni zamanda Şərqin ictimai-mədəni, ədəbi mühiti ilə maraqlanır...

1859-cu ildə Şamaxıda güclü zəlzələ baş verir, böyük dağıntı olur. Seyid Əzimin ailəsi də zərər çəkir. Bütün bunlara baxmayaraq, o, şəhərdə yeni üsulla "Məclis" adlı məktəb açır. Mollaxanadan fərqli olaraq bu məktəbdə ana dili ilə yanaşı, rus və fars dilləri də tədris edilir. Şagirdlərə dünyəvi elmlərdən ibtidai məlumat verilir.

Seyid Əzim pedaqoji fəaliyyətlə məhdudlaşmır, eyni zamanda maarifçi və tənqidi-satirik şeirlər də qələmə alır. Şeirlərində mövhumatı, nadanlığı qamçılayır, insanları elmə, təhsilə səsləyir. Şairin mühitdəki problemləri açıb göstərən şeirləri mövhumatçı dindarların kəskin etirazına səbəb olur. "Əkinçi"də dərc etdiyi yazılardan sonra yuxarı dairələrdə onu sevməyən, düşmənçəsinə yanaşanlar çoxalır. Bir müddət sonra şəhər ruhanilərinin S.Ə.Şirvaniyə qarşı dözümsüzlüyü açıq şəkildə özünü göstərir. Digər tərəfdən Şamaxıda dövlət məktəbləri açılır. Onun məktəbi bu yeni tədris ocaqları ilə rəqabətə davam gətirmir və fəaliyyətini dayandırır. Hətta 1879-cu ildə Seyid Əzim hökumət nümayəndələri ilə ruhanilərin işbirliyi sayəsində müəllimlikdən də kənarlaşdırılır. Vəziyyətin belə alındığını görən şair Tiflis şəhərinə gedir. Qafqaz Maarif İdarəsi rəisinə işdən haqsız çıxarıldığını bildirir. Bəzi maarifpərvər şəxslərin də səyləri nəticəsində sevdiyi peşəsinə qayıda bilir. Şamaxıda yeni açılan şəhər məktəbinə müəllim təyin olunur və ömrünün sonuna qədər Azərbaycan dili və ədəbiyyat fənlərini tədris edir.

S.Ə.Şirvani zəngin bədii irs yadigar qoyub. O, qəzəl, müxəmməs, aşiqanə lirik şeirlər, mənzum hekayə, təmsil, maarifçilik ruhunda əxlaqi-didaktik əsərlər, habelə məqalələr yazıb. Həmçinin Azərbaycan, İran, Türkiyə (Osmanlı) və Rusiya şairləri haqqında məlumat verən təzkirənin müəllifi olub. Şair "Məcmueyi-asari-Hacı Seyid Əzim Şirvani" və "Tacül-kütub" ("Kitabların tacı"), "Rəbiül-ətfal" ("Uşaqların baharı") adlı dərsliklər də yazıb. S.Ə.Şirvani "Tacül-kütub"u əlyazma şəklində Qori Müəllimlər Seminariyası Tatar (Azərbaycan) şöbəsinin müdiri A.O.Çernyayevskiyə göndərib. O da həmin kitabdan bir neçə hekayəni tərtib etdiyi "Vətən dili" kitabına daxil edib. Seyid Əzim eyni zamanda Şamaxıda fəaliyyət göstərən "Beytüs-Səfa" ədəbi məclisinin rəhbəri olub.

Onu da qeyd edək ki, şairin bədii irsi Azərbaycan və fars dillərində olmaqla iki böyük külliyyatdan (divan) ibarətdir. Yaradıcılığının çox hissəsini qəzəllər təşkil edir. Bunların arasında həyat eşqi, nikbin əhvali-ruhiyyə və dini etiqadlar xüsusi yer tutur. Şairin şeirə ruh verən dərin lirikasını məhz onun qəzəllərində görmək olur:

*Gecə gördüm səni,*
*ey afəti dövran, yuxuda,*
*Ki, elərdin mənə yüz lütfi-firavan yuxuda.*

Şairin lirikasına böyük sələfi dahi Məhəmməd Füzulinin mühüm təsiri olub. Bunu müəllifin aşiqanə qəzəllərində daha aydın görmək mümkündür. Seyid Əzim eyni zamanda Füzulinin yaradıcılığından tərcümələr edib, ona nəzirələr yazıb. S.Ə.Şirvani yaradıcılığında məhəbbət mövzusu da aparıcı yer tutur. Lirik qəzəllərində saf, ülvi məhəbbət sənətkarlıqla qələmə alıb. Bədii təsvir və ifadə vasitələrindən uğurla bəhrələnərək qəhrəmanın daxili aləmini, hiss və duyğularını böyük ustalıqla açmağa müvəffəq olub.

S.Ə.Şirvani yaradıcılığının ikinci mərhələsi onun maarifçi və tənqidi-realist şeirləri ilə başlayır. Onun realizmə meyil göstərməsində Azərbaycan milli mətbuatının qaranquşu olan "Əkinçi" qəzeti böyük rol oynayıb. Bu qəzet eyni zamanda şairin yaradıcılığına mövzu rəngarəngliyi gətirib. Nəticədə müəllif müasir həyatın tələblərinə uyğun şeirlər qələmə alıb, ictimai-mədəni mühitdə baş verən yeniliklərə öz münasibətini bildirib. Şair "Əkinçi"də dərc olunan və qəzetin yaradıcısı, böyük maarifçi, pedaqoq Həsən bəy Zərdabiyə müraciətlə başlayan "Qafqaz müsəlmanlarına xitab" şeirində yalançı dərviş, molla və mərsiyəxanların iç üzünü açıb tənqid atəşinə tutur:

*Hər vilayətdə var beş-on kəsəbə,*
*Əlli min seyyidü, axund, tələbə,*
*Əlli dərviş, əlli mərsiyəxan,*
*Hamının sözləri tamam yalan.*
*Hamının fikri xəlqi soymaqdır,*
*Quru yerdə bu xəlqi qoymaqdır...*

Həsən bəyin maarifçi təşəbbüslərini alqışlayan şair həmin şeirdə onu savadlı və xeyirxah bir insan kimi qiymətləndirir. "Əkinçi"də dərc etdirdiyi şeirlərilə müasirlərini bu qəzeti oxumağa və kömək etməyə çağırır:

*Bəs "Əkinçi" cəlalımızdı bizim,*
*Nəsihi-xoşməqalımızdı bizim.*
*Səy edək, ey güruhi-niksifat,*
*Etməsin ta bizim "Əkinçi" vəfat...*

Şair gənc nəslin təlim və tərbiyəsini saxta din xadimlərinə tapşırmamağı tövsiyə edib. Onların kəmsavadlığını "Müctəhidin təhsildən qayıtması", "Alim oğul ilə avam ata" kimi əsərlərində satira atəşinə tutub. "Yerdəkilərin göyə şikayət etmələri", "Dəli şeytan", "Məkri-zənan", "Bəlx qazisi və xarrat" və s. satiraları müəllifi dövrünün realist şairi kimi tanıdıb.

Araşdırmalarda qeyd edilir ki, S.Ə.Şirvaninin pedaqoji fəaliyyəti hökumətin diqqətindən kənarda qalmır. 1887-ci ildə maarifçilik sahəsində xidmətlərinə görə çar üsul-idarəsi tərəfindən "Za userdiye" ("Səy və qeyrətinə görə") medalı ilə təltif olunur. Şair medala görə ödəniləcək 7 manat 50 qəpiyi ölümündən on gün əvvəl alır...

Böyük maarifçi şair, mütəfəkkir, ziyalı Seyid Əzim Şirvani 20 may (yeni təqvimlə 1 iyun) 1888-ci ildə Şamaxı şəhərində vəfat edib. Vəsiyyətinə əsasən, Şaxəndan qəbiristanlığında dəfn olunub.

**Savalan Fərəcov**

# Mikado – fəxri, uca deməkdir...

## "Teatr binaları" silsiləsindən növbəti yazı



Hər şey ondan başladı ki, milyonçu Hacı Haşım bəy Kərimovun oğlu Əliheydər bəy Yaponiya və Çin səyahətindən Bakıya qayıtdı. Səfərdən dönərkən özü ilə yəqin nələrsə, yəni hədiyyə, suvenir-filan gətirməmiş olmazdı. Amma zaman göstərdi ki, zəngin bəyzadənin Uzaq Şərq səyahətindən gətirdiyi ən böyük və ən maraqlı xatirə oralarda gördüyü memarlıq üslubuna heyranlıq və qulağına xoş gələn kəlmələr imiş.

O zaman təqvimdə 1916-cı il idi...

Bəyzadənin səfər təəssüratından o illərdə artıq neft bumunun adiləşdiyi Bakı da qazandı. Bu qazancın nədən ibarət olduğunu bilmək üçün təqvimi təxminən otuz-qırx il geri çevirmək lazımdır...

XIX əsrin yetmişinci illərində şəhər hökuməti Rusiyadan sürgün edilmiş molokanların Bakının lap ortasındakı daxmalarını, tövlələrini şəhərdən kənara köçürüb boşalan ərazini abadlaşdırmağa qərar verdi. Sonradan "Molokan bağı" (sovet dövründə "9 Yanvar", indisə "Xaqani bağı" adlanan park) adını alacaq yer yaşıllaşdırıldı və onun ətrafında müxtəlif tikililər yağışdan sonra göbələk kimi artmağa başladı. Əsrin sonuna yaxın bu ətraf nizamsızlıq üzündən bir növ Bakıdakı bütün memarlıq üslublarının bir-birinə qarışdığı məkan idi. Yaşayış evləri, ticarət obyektləri ilə yanaşı, burada fərqli binalar da inşa edilmişdi. Elə həmin vaxtlarda, Molokan (indiki Xaqani) küçəsi ilə Praçeçnaya, yeni Camaşırxana (indiki Qoqol) küçəsinin tinində Bakı milyonçusu, tacir Hacı Haşım bəy Kərimov da anbar kimi istifadə edilmək üçün bina tikdirmişdi. Bina görkəmindəki heç bir bəzəyi, detalı ilə diqqəti çəkmirdi. Adi anbar binası idi. Yəqin ki, nə zamansa bu anbar binası söküləcəkdi və ondan da bir xatirə qalmayacaqdı, əgər...

Əgər Əliheydər bəyin ideyası olmasaydı. Səyahət etməyi xoşlayan Əliheydər bəy Çin və Yaponiya səyahətindən aldığı təəssüratın təsiri ilə belə qərara gəlir ki, zamanla ayaqlaşmaq lazımdır, bu niyyətlə də anbarı sinematoqrafa çevirdi. Əslində, buna yenidənqurma demək günah olardı, dəbdəbəli üslub dəyişikliyindən sonra bina yapon-Çin üslubunda paqodaya (Uzaq Şərq memarlığında geniş yayılan, hər mərtəbəsinin karniz-damı olan çoxmərtəbəli tikili – red.) çevrildi. Düzdür, binanın ölçüləri dəyişməmişdi, tikilinin "Molokan bağı"na çıxan tinin damı paqoda kimi həll edilmişdi.

"Mikado" 1916-cı il dekabrın 26-da açıldı. Bina rəsmi olaraq "Mikado" böyük bədii kino-teatrı adlandırıldı. O zamanlar kinolentlərin nümayiş olunduğu teatrları məhz kino-teatr adlanlırır və bu söz defis ilə yazılırdı. Dövrün populyar qəzetlərindən olan "Kaspi"də "Mikado"da tamaşaların göstərildiyi barədə elanlar dərc olunurdu.

***

1917-ci ildə Bakıda ilk dəfə "Mikado"da kiçikyaşlı məktəblilər üçün elmi-öyrədici kinematoqrafik seans keçirildi.

Azərbaycan Cümhuriyyəti dövründə (1918–1920) "Mikado" binasında qismən klub, qismən teatr kimi fəaliyyət göstərən "Pel-Mel" (qat-qarışıqlıq, nizamsızlıq, necə gəldi mənasında işlədilir) klubu fəaliyyət göstərdi. Burada Rusiyadan və digər ölkələrdən gələn həvəskar aktyorlar və musiqiçilər çıxış edirdilər.

1920–1923-cü illərdə binada yeni yaradılan və sovet təbliğatına xidmət edən Bakı Azad Tənqid və Təbliğ Teatrı fəaliyyət göstərdi. Yazının mövzusu başqa olduğu üçün bircə bunu qeyd edək ki, 1923-cü ildə teatrın adı dəyişdirilib Bakı İşçi Teatrı adlandırıldı. Məhz bu kollektiv sonradan Azərbaycan Dövlət Rus Dram Teatrı ismini daşıyacaqdı.

Elə buradan məlum olur ki, maraqlı tamaşaları ilə Azərbaycanın ikidilli teatrlarını özünə cəlb edən, yaxın-uzaq xaricdə milli teatr sənətimizi layiqincə təmsil edən bu kollektiv nə az, nə çox, düz 104 ildir ki, bu binada məskunlaşıb.

Hələliksə, təqvimdə 1928-ci ildir və Bakı İşçi Teatrının binasına əl gəzdirilir. Deyəsən, bizim olmayan bu paqoda sovet rəhbərliyinin gözlərini yaman yorurmuş. Binanın Şərq üslublu fasadı tamamilə dəyişdirilir, eksteryerə bəzi hissələr artırılır və... bu bərpadan sonra tikilini görənlər onu ən yaxşı halda fabrikə, ən pis halda isə həbsxanaya oxşadırlar. Yapon dilində fəxri, uca anlamı verən mikadoya oxşarlıqdan əsər-əlamət qalmır.

Kərimovun anbarından yadigar qalmış birinci mərtəbənin köhnə tağ pəncərələrinə toxunmasalar da, onları ya daşla hördülər, ya da ağır taxta qapılarla qapadılar. İkinci mərtəbənin də pəncərələri ixtisara düşdü. Təkcə küncdəki paqodanın yerində üçlaylı pəncərə qoyuldu, bir də fasada baxan hissəyə şüşə salındığı üçün pəncərəyə oxşayan dörd dəlik açıldı.



Binaya artırılan üçüncü mərtəbə, sadəcə, daşla hörülmüş mənasız divardan başqa bir şey deyildi. Əlbəttə, təxminən yüz ildən sonra o illərin eksperimental layihələri barədə fikir yürütmək asan görünür. Hər şeyi ideallaşdırmağa meyilli olanlar bu dəyişikliyi hansısa futuristik layihə kimi də dəyərləndirə bilərlər.

Şükürlər olsun ki, binanın xaricinə edilən qəribə və kobud dəyişiklik binanın içində, xüsusən də səhnəsində təkrarlanmırdı. Düzdür, bütün Sovet İttifaqındakı teatrlarda olduğu kimi, burada da dövrün ideoloji tələblərinə cavab verən pyeslər oynanılırdı, amma hər halda, kollektivin peşəkarlığı, repertuarda daim Azərbaycan və dünya klassiklərinin əbədiyaşar mövzularda qələmə aldıqları əsərlərin olması tamaşaçıları teatrdan uzaqlaşmağa qoymurdu.

***

...1945-ci ildə müharibə başa çatandan sonra teatrda təmir işləri görülür. Təəssüf ki, həmin təmir barədə heç bir fakt qalmayıb. Nəhayət, 1962–64-cü illərdə binada köklü rekonstruksiya işləri görülür. O zaman Bakıda modernizm cərəyanını yaxşı tətbiq etməyi bacaran xeyli memar çalışırdı. Rus Dram Teatrının binasının təmir və bərpa işləri onlardan ikisinə – Xanım Rəhmanova və İvan Sarkisova həvalə edilir. Binanın özülü və ana divarları XIX əsrdə inşa edilmiş anbardan qalsa da, onun xarici görkəmində nəzərəçarpacaq dəyişiklik edilir. Teatr binası o illərin sovet moderni görkəmini alır. Tamaşa salonunda da xeyli dəyişiklik edilir: lojalar, beletaj, benuar-loja götürülür. Əslində bu, teatr rəhbərliyinin istəyi idi. Çünki tamaşaçılar davamlı olaraq sütunların arxasına düşən yerlərdən və benuar lojalardan səhnəni rahat seyr edə bilməməkdən şikayətlənirdilər.

O zaman postsovet ərazisində sovet konstruktivizmi dövrü başlamışdı və Rus Dram Teatrının tamaşa salonu müvafiq ruhda tərtib edilir: ciddi, sadə, qondarma zərifliksiz. Əvvəlki interyerdən qalan amfiteatr, bir də salonun hər iki tərəfində, səhnəyə yaxın iki loja olur. Yeri gəlmişkən, Rus Dram Teatrının salonu bu gün də məhz bu görkəmdə tamaşaçıları qarşılayır.





Binanın eksteryerinə gəlincə, o, nə milyonçu Kərimovun anbarına, nə "Mikado" teatrına, nə də onların iyirminci illərdəki eybəcər oxşarına bənzəyirdi. Simasız, düzbucaqlı, paytaxt teatrından daha çox hansısa şirkət nəzdindəki Mədəniyyət evinə oxşayan tikili ortaya çıxmışdı.

***

Nəhayət, 2006-cı ildə Rus Dram Teatrı iki il müddətinə təmirə bağlanır. Dövlət başçısı İlham Əliyevin teatr binalarının əsaslı təmiri barədə müvafiq sərəncamına əsasən, binanın tam texniki yenilənməsini nəzərdə tutan əsaslı təmir başlanır.

Fasadın yenilənməsindən işıqlandırma avadanlıqlarınadək müasir bina atributlarından istifadə olunur. Əslində, 80-ci illərdə teatr binasında aparılan cari təmirdə də fasada müasir görkəm verilmişdi, amma hər halda, o keyfiyyət 2008-ci ildəki texnologiyadan uzaq idi.

Təmir başlayanda binanın təkcə divarları və dam örtüyü saxlanılır. Əslində, binanın tavanı da çürümüşdü. Bu səbəbdən də görüləcək işlərin həcmi artırılır. Dam örtüyü, xidməti otaqlar, səhnənin texniki təchizatı yenilənir. Əsaslı təmir müddətində kollektiv teatrın qonşuluğundakı Xəzər Dənizçiləri Mədəniyyət evinin binasında çalışıb, tamaşalarını oynayırdı.

Nəhayət, 26 may 2008-ci il tarixində Azərbaycan Dövlət Rus Dram Teatrının əsaslı təmirdən çıxmış binasının açılışı oldu. Mərasimdə Prezident İlham Əliyev və birinci xanım Mehriban Əliyeva iştirak etdilər.

***

Səyahətlərin maddi xatirələri müxtəlif olur: suvenir, geyim, yol qısadırsa, lap ləziz bişmiş, şirniyyat da bir xatirədir. Amma əllə toxunulası, istifadə ediləsi hər nə varsa, işlənir, dağılır, hətta qarət də edilir. Eynilə cavan Əliheydər bəy Kərimovun uzaq Yaponiya, Çin səyahətindən gətirdikləri kimi. O səfərdən bu günümüzə gəlib çatan bircə teatr binasıdır ki, o da dəfələrlə məruz qaldığı yenidənqurmalardan sonra görkəmini dəyişib. Amma ad... Mikado – yapon dilində fəxri, uca mənasını verən bu kəlmə məhz sənətə yaraşan sözdür.

**Gülcahan Mirməmməd**

# Avstriyada Millətlər Festivalında Azərbaycan guşəsi maraqla qarşılanıb




Avstriyanın tanınmış kurort turizmi məkanlarından olan Bad Hofqaştayn qəsəbəsində (Zalsburq əyaləti) 4-cü Millətlər Festivalı (29 iyun) keçirilib.

Diasporla İş üzrə Dövlət Komitəsinin dəstəyi ilə festivalda ölkəmizi Zalsburq şəhərində fəaliyyət göstərən Avstriya Azərbaycanlıları Cəmiyyəti və Azərbaycan Evi təmsil edib.

Qırxdan çox millətin birgə yaşadığı, yay və qış turizmi, kurortları və füsunkar təbiəti ilə tanınan qəsəbədə ənənəvi olaraq keçirilən festivalın məqsədi müxtəlif xalqların mədəni müxtəlifliyi, milli mətbəxi, musiqi və rəqslərini nümayiş etdirmək, regionun multikultural dəyərlərini zənginləşdirməkdir.

Festivalda Azərbaycan guşəsi maraqla qarşılanıb. Guşədə Azərbaycan milli xörəkləri və şirniyyatları, eləcə də Azərbaycan istehsalı olan məhsul və suvenirlər sərgilənib. Yerli sakinlərə və turistlərə ölkəmiz, onun zəngin mədəniyyəti, musiqisi, mətbəxi barədə məlumat verilib, kitab və broşürlər hədiyyə olunub.

Müxtəlif ölkələrin nümayəndələri öz milli musiqi və rəqslərini də təqdim ediblər. Festivala milli geyimdə qatılan soydaşlarımızın ifasında “Uzundərə“ və ”Naz eləmə” rəqsləri xüsusi maraqla qarşılanıb.



Təşkilatçılar ən maraqlı təqdimata görə Azərbaycan guşəsini birinci yerlə mükafatlandırıb, regionun mədəni müxtəlifliyinin tanıdılmasına həsr olunmuş festivala verilən töhfəyə görə təşəkkürlərini bildiriblər.

Yerli telekanala müsahibə verən Avstriya Azərbaycanlıları Cəmiyyətinin rəhbəri Fərid Əzizov milli-mənəvi dəyərlərimizdən danışıb, jurnalistlərə ölkəmiz haqqında kitablar təqdim edib.

# Göbəklitəpə arxeoloji abidəsini 3 milyona yaxın turist ziyarət edib



Türkiyənin cənub-şərqində, Şanlıurfa vilayətində yerləşən Göbəklitəpə arxeoloji abidəsini ziyarətə açıldığı 2019-cu ildən bu yana 2,8 milyondan çox turist ziyarət edib.

Göbəklitəpə arxeoloji kompleksi alimlər tərəfindən 1963-cü ildə aşkar edilib. 1995-ci ildə qazıntıların başlamasından sonra arxeoloqlar bu ərazidə Neolit dövrünə aid “T” formasında 3-6 metr hündürlüyündə və 40-60 ton ağırlığında heyvan təsvirləri olan artefaktlar aşkar ediblər. Arxeoloji abidə 2018-ci ilin iyulunda isə UNESCO-nun Dünya İrs Siyahısına salınıb.

12 min il tarixi olan Göbəklitəpə kompleksi dünyada ən qədim meqalit (daş) tikililərdən biri hesab edilir. 2019-cu ilin martında Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğanın iştirakı ilə burada arxeoloji muzey-kompleks açılıb. Həmin il ölkədə “Göbəklitəpə ili” elan olunub.

2020–2021-ci illərin pandemiya karantinindən sonra yenidən ziyarətə açılan məkana əcnəbi turistlər də böyük maraq göstərir.

Şanlıurfa Mədəniyyət və Turizm İdarəsinin müdiri Aydın Aslanın sözlərinə görə, arxeoloqlar tədqiqatları ilboyu davam etdirirlər. Bu tarixi abidə alimlərin bəşər tarixinə dair anlayışını dəyişdirib. Bütün tapıntılar Şanlıurfa Arxeologiya Muzeyinə təhvil verilir.

# Çində süni intellekt sənayesinin həcmi 70 milyard dolları ötüb

Çində süni intellekt texnologiyaları sənayesinin ümumi həcmi 500 milyard yuanı (təxminən 70,4 milyard dollar) keçir.



Bunu Şanxayda keçirilən Dünya Süni İntellekt Konfransında Çin Xalq Respublikası Dövlət Şurasının sədri Li Çian deyib.

Onun sözlərinə görə, süni intellektin istifadəsi istehsal, nəqliyyat, təhsil, tibb və digər sahələrdə genişlənir. Eyni zamanda əlaqəli texnologiyaların bu qədər sürətli inkişafı qanunvericilik, etika və bir sıra məsələlərin, o cümlədən süni intellektin insan sivilizasiyası üçün ən böyük təhlükəyə çevrilə biləcəyi ilə bağlı narahatlığa səbəb olur. “Çin süni intellektin təhlükəsiz idarə olunmasına böyük əhəmiyyət verir, tədricən güclü etika kodeksi və tənzimləmə sistemini tətbiq edir”, – deyə o bildirib.

Li Çian süni intellekti bəşəriyyətin ortaq irsi adlandırıb: “Biz süni intellektin inkişafı üçün ədalətli, açıq və ayrı-seçkiliyə yol verməyən mühit yaratmaq, inkişaf etməkdə olan ölkələrə öz imkanlarını gücləndirməyə kömək etmək və daha çox ölkəyə süni intellektin inkişafının nailiyyətlərindən şərik olmaq imkanı vermək üçün birlikdə çalışmalıyıq”.

# Babanın ayağına toxunmaq uğrunda izdiham

## 121 nəfər ölüb...

Hindistanın Uttar Pradeş ştatında iyulun 2-də dini mərasim zamanı yaranan izdiham xeyli sayda insanın ölümünə səbəb olub. Məlumatlara görə, ölənlərin sayı 121-ə çatıb, onlarla adam xəsarət alıb. Hadisə ştatın Hathras bölgəsinin Muğal Qarhi kəndində baş verib.

Qeyd olunur ki, dini vaiz Bhole Baba ilə görüşə 50 mindən çox insan gəlib. İzdiham Baba mərasimi tərk edərkən başlayıb. İnsanlar ehtiram əlaməti olaraq ayaqlarına toxunmaq üçün onun arxasınca qaçmağa başlayıblar və bu zaman çoxu yerə yıxılıb. Vaizin mühafizəçiləri onun avtomobili uzaqlaşana qədər hadisə yerindən çıxışı bağlayıblar. Bu müddət ərzində yerə yıxılanlar izdiham tərəfindən əzilib.



Bildirilir ki, hadisə ilə bağlı təhqiqat başlayıb. Polis hadisədən sonra yoxa çıxan Bhole Babanı axtarır. Artıq ona məxsus xeyriyyə fondunun ofisində və evində axtarış aparılıb.

Hindistanın Baş naziri Narendra Modi həlak olanların ailələrinə təzminat ödəniləcəyini deyib.

# Ölülərin məkanından faydalanmaq...

## Qəbiristanlıqlarda günəş enerjisi panelləri qoyulur

İspaniyanın Valensiya şəhərində qəbiristanlıqları yaşıl enerji mərkəzlərinə çevirmək üçün iddialı planın bir hissəsi olaraq günəş enerjisi panelləri quraşdırılır.

“Requiem in Power” (RIP) layihəsi təxminən 2,8 MVt elektrik enerjisi istehsal etmək gücünə malik olacaq.

Layihənin təfərrüatlarını əks etdirən Avropa İttifaqının məlumat hesabatına görə, Valensiyadakı qəbiristanlıqlarda təxminən 7000 fotovoltaik panel quraşdırılıb. Bu ictimai yerlər təmiz enerji istehsalı üçün geniş yer təklif edir. İstehsal olunan enerji həm kommunal xidmətlərdə, həm də şəhər sakinlərinin evlərində istifadə olunacaq. Hesablamalara görə, RIP layihəsi tam fəaliyyətə başlayanda hər il 140 tona qədər karbon emissiyasının qarşısını alacaq. Bu layihə “Valensiya 2030” İqlim Məqsədi çərçivəsindədir.



Valensiya qəbiristanlıqda günəş panelləri quraşdıran ilk yer deyil. Fransada Saint-Joachim kommunası 2021-ci ildə qəbiristanlığını bərpaolunan enerji mərkəzinə çevirmək üçün layihəyə başlayıb. Layihə üzrə 2025-ci ilə qədər təxminən 3,3 milyon avro dəyərində 5000 panel quraşdırmaq planlaşdırılır.

# Rusiyada artistlərin konsertlərdəki geyiminə nəzarət olunacaq

Rusiya Federasiyasının Mədəniyyət Nazirliyi konsertlərdə artistlər üçün geyim tərzi (dress-kod) tətbiq etmək ideyasını dəstəkləyir.

Nazirlikdən Dövlət Dumasının deputatı İrina Filatovanın bununla bağlı müraciətinə cavab olaraq bildirilib ki, mədəniyyət tədbirlərində, xüsusilə dövlət və bələdiyyə obyektlərində yaş məhdudiyyəti olmadan keçirilən tədbirlərdə çıxış edən musiqiçilərin xarici görünüşünə diqqət etməsi məqsədilə mədəniyyət sahəsində yerli orqanlara müvafiq tövsiyə göndərilib.

Qeyd olunub ki, sənətçilərin geyimləri obrazın mühüm tərkib hissəsidir və bütün tədbirin imicinin formalaşmasında mühüm rol oynayır. Bildirilib ki, bəzi musiqiçilərin geyimləri vətəndaşları narahat edə və mənfi reaksiyaya səbəb ola bilər.

Dövlət Dumasının deputatı Mədəniyyət Nazirliyinə müraciətində yaş məhdudiyyəti olmayan konsertlərdə musiqiçilərə geyim tərzinə dair müəyyən tələblər qoymağı təklif edib. Qeyd edilir ki, bir sıra müğənnilərin xüsusilə uşaq və yeniyetmələrin olduğu konsertlərdə səhnəyə açıq-saçıq geyimdə çıxması cəmiyyətdə mənfi rezonans doğurur.

# Avtobus dayanacağında tapılmışdı – 17,5 milyona satılıb



Oğurlandıqdan sonra Londonda avtobus dayanacağında plastik torbada tapılan rəsm hərracda 17,5 milyon funt-sterlinqə satılıb.

İntibah dövrü rəssamı venesiyalı Titsianın (ital. Tiziano Vecellio; 1488–1576) 20 yaşında ikən çəkdiyi “The Rest on the Flight into Egypt” (“Misir yolunda dincəliş”) əsəri Londonun “Christie’s” hərrac evi tərəfindən satılıb.

1508-ci ildə çəkildiyi bildirilən tabloda Məryəmin körpəsi İsa (gələcək peyğəmbər) və əri (İosif) ilə təqiblərdən Misirə qaçarkən yolda dayanmaları təsvir olunub.

Əsər 1995-ci ildə Uiltşirdəki bir evin qonaq otağından oğurlanmış, lakin yeddi il sonra Londondakı avtobus dayanacağında plastik torbada çərçivəsiz tapılmışdı. Hərraccılar bildiriblər ki, rəsm əsərinin satıldığı məbləğ rəssam üçün yeni dünya hərrac rekordudur.

Tablonun Avstriya İmperatoru II İosif də daxil olmaqla, illər ərzində bir çox sahibi olub.

Beynəlxalq Muğam Mərkəzinin rəhbərliyi və kollektivi
tarzən, Əməkdar artist

**Səbuhi Cəfərovun**

vəfatı ilə əlaqədar mərhumun ailəsinə və yaxınlarına
dərin hüznlə başsağlığı verir.

**Allah rəhmət eləsin.**

## Xronoqraf

**9 iyul** Azərbaycanda diplomatik xidmət əməkdaşlarının bayramıdır. 1919-cu il iyulun 9-da Azərbaycan Xalq Cümhuriyyətinin Xarici İşlər Nazirliyi diplomatiya fəaliyyətini tənzimləyən ilk normativ sənədi – XİN-in katibliyi haqqında müvəqqəti təlimatı təsdiq edib. Prezident İlham Əliyevin 24 avqust 2007-ci il tarixli sərəncamı ilə 9 iyul Azərbaycanda diplomatik xidmət əməkdaşlarının peşə bayramı günü elan edilib.

# Tarixdə bu gün

## Olaylar, faktlar (6 – 9 iyul)



### 208 il əvvəl...

**9 iyul 1816-cı ildə** İspaniyanın Cənubi Amerikadakı ən böyük müstəmləkəsi (ərazisi 2,7 milyon kv.km) olan Argentina müstəqilliyini elan edib. XVI əsrdə İspaniyanın müstəmləkəsinə çevrilən Argentina La-Plata general-qubernatorluğu adlanırdı. Müstəqilliyini də “Birləşmiş La-Plata Əyalətləri” adı altında qazanmışdı. 1826-cı ildə Federativ Argentina Respublikası elan edildi.

### 125 il əvvəl...



**7 iyul 1899-cu ildə** ABŞ Havay adalarını işğal edib. Sakit okeandakı arxipelaq əvvəlcə İspaniyanın, sonra isə Britaniyanın nəzarətində olmuşdu. Havay adaları ştat statusu ilə ABŞ-yə birləşdirildi.

### 101 il əvvəl...

**7 iyul 1923-cü ildə** Azərbaycan SSR Mərkəzi İcraiyyə Komitəsi respublika ərazisində Dağlıq Qarabağ Muxtar Vilayətinin (DQMV) təşkil olunması barədə dekret verib. Dekret Rusiya K(b)P-nin Qafqaz Bürosunun iki il əvvəl (5 iyul 1921) qəbul etdiyi tövsiyə qərarına əsasən verilmişdi. Həmin qərarda muxtariyyətin mərkəzi Şuşa göstərilsə də, Azərbaycan MİK-in dekretində vilayətin mərkəzi kimi Xankəndi qəsəbəsi seçilmişdi. DQMV bölgədə erməni separatçılığının və Ermənistanın Azərbaycana qarşı əsassız ərazi iddialarının hərbi münaqişəyə keçməsindən sonra, 1991-ci ilin 26 noyabrında Azərbaycan Ali Soveti tərəfindən ləğv edildi.

### 98 il əvvəl...

**6 iyul 1926-cı ildə** Bakıda ilk elektrikləşdirilmiş dəmir yolu (Bakı–Sabunçu xətti) istifadəyə verilib. Bu, SSRİ-də ilk elektrikləşdirilmiş dəmir yolu idi. 1924-cü ildə şəhərdə tramvay xəttinin işə salınması ilə elektriklə işləyən ucuz nəqliyyat yolunun ətraf ərazilərə də çəkilməsi gündəmə gəlmişdi. Bakı–Sabunçu xətti ilə elektrik qatarları üçün yeni vağzal binası (Sabunçu vağzalı) da istifadəyə verilib. Hazırda bu binada Dəmir Yolu Muzeyi yerləşir.



### 49 il əvvəl...

**6 iyul 1975-ci ildə** Hind okeanındakı (Afrikanın şərqində) Qəmər adaları Federativ İslam Respublikası kimi müstəqilliyini elan edib. 2002-ci ildən Qəmər Adaları İttifaqı adlanır. Qəmər adaları XIX əsrin sonundan Fransanın nəzarətinə keçmişdi. Ərazisi 2,2 min kvadrat kilometrdir. 900 min nəfərə çatan (2010) əhalisinin əksəriyyəti müsəlmandır.

### 32 il əvvəl...

**8 iyul 1992-ci ildə** ATƏM-in (1995-ci ildən ATƏT) Helsinki zirvə toplantısında iştirak edən Prezident Əbülfəz Elçibəy Azərbaycanın təşkilata üzvlüyünə dair sənədləri, o cümlədən Helsinki Yekun Aktını (1975) imzalayıb. Azərbaycan ATƏM-ə 1992-ci il yanvarın 30-da qəbul olunmuşdu.

**Hazırladı: V.Orxan**

Azərbaycan Respublikası Mədəniyyət Nazirliyinin nəşri
MƏDƏNİYYƏT
Qəzet 1991-ci ilin yanvarından çıxır

**Baş redaktor:** Vüqar Əliyev

**Ünvan:** AZ 1012, Bakı şəhəri, Moskva prospekti 1D
Dövlət Film Fondu, 5-ci mərtəbə

**Telefon:** (012) 431-28-79 (baş redaktorun müavini)
431-57-72 (redaktor)
430-16-79 (müxbirlər)
530-34-38 (mühasibatlıq, yayım)
**E-mail:** qazet@medeniyyet.az
**Lisenziya №** AB 022279. **İndeks:** 0187. **Qiymәti:** 60 qəpik

“Mədəniyyət” qəzetinin kompüter mərkəzində səhifələnib,
“Azərbaycan“ nəşriyyatında çap olunub.
**Tiraj:** 5086. **Sifariş:** 1509
**Buraxılışa məsul:** Fariz Yunisli

Yazılardakı faktlara görə müəlliflər cavabdehdir.
Qəzetdə AZƏRTAC-ın materiallarından da istifadə edilir.

**Bank rekvizitləri:**
Kapitalbank 1 saylı Yasamal filialı
**Kod:** 200037. **VÖEN:** 9900003611. **SWIFT:** AIIBAZ2XXXX
**Müxbir hesab:** AZ37NABZ01350100000000001944

MADANIYYAT QAZETI REDAKSIYASI
**H/Hesab:** AZ98AIIB33080019443300232103. **VÖEN:** 1300338641